

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Sayı: 29 (24.515)

*1 avqust 2026-cı il, şənbə*

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# Hər bir azərbaycanlının Prezidenti İlham ƏLİYEV:



*“Bu gün Azərbaycan dinamik, sürətlə inkişaf edən ölkədir. Azərbaycan demokratiya, azadlıq, müstəqillik, tərəqqi, inkişaf yolu ilə uğurla gedən ölkədir. Əminəm, dünyada yaşayan bütün azərbaycanlılar fəxr edirlər ki, bu gün dünya xəritəsində Azərbaycan kimi dövlət var, öz sözünü deyir, deyəcək və bizim uğurlu inkişafımız bundan sonra da təmin ediləcəkdir.”*

Vətəni və milləti qarşısında misilsiz xidmətləri olan, müstəqilliyimizin müəllifi və müasir dövlətimizin memarı Ulu Öndər Heydər Əliyevin xalq qarşısındakı ən böyük xidmətlərindən biri də Azərbaycanın gələcək taleyində əvəzsiz rolu, milləti və dövləti qarşısında müstəsna xidmətləri olan cənab İlham Əliyev kimi böyük şəxsiyyət və müdrik bir lider yetişdirməsi olmuşdur. Ümummilli Lider Heydər Əliyev qurduğu dövlətin taleyini etibar edəcəyi yeni Liderin seçilməsində nümayiş etdirdiyi müdrikliyin miqyası illər keçdikcə daha aydın görünmüş, bu seçimin uğuru öz təsdiqini qəti şəkildə tapmışdır. 2003-cü ilin prezident seçkiləri ərəfəsində prezidentliyə namizəd İlham Əliyev haqqında dediyi *“Mən İlham Əliyevə özüm qədər inanır və onun gələcəyinə böyük ümidlər bəsləyirəm. Əminəm ki, mənim başa çatdıra bilmədiyim işləri o, başa çatdıracaqdır”* sözləri Ümummilli Liderin uzaqgörənliyinin və seçiminin alternativsizliyinin bariz nümunəsi sayıla bilər. Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı cənab İlham Əliyevin keçdiyi həyat yolu, ictimai-siyasi proseslərdə fəal iştirakı, idarəetmədə qazandığı təcrübə, yüksək intellekti və müasir siyasi lider üçün səciyyəvi keyfiyyətləri 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində onun inamlı qələbəsini təmin etdi. Dövlət başçısı kimi fəaliyyətə başlayarkən səsləndirdiyi *“Mən hər bir azərbaycanlının Prezidenti olacağam”* fikri sonrakı illərdə həyata keçirilən siyasətin əsas istiqamətlərindən birinə çevrildi. Ötən dövr ərzində cənab İlham Əliyev cəmiyyətin böyük əksəriyyətinin etimad və rəğbət göstərdiyi lider kimi qəbul olundu. Bu illərin reallıqları Heydər Əliyev siyasi kursunun əsasını təşkil edən sülh, sabitlik və inkişaf yolunun alternativsizliyini bir daha sübut etdi, güclü dövlət konsepsiyasının isə ardıcıl və uğurla həyata keçirildiyini təsdiqlədi.

Səhifə ⇨ 6-7

# Azərbaycan-Qırğızıstan münasibətləri:

## strateji tərəfdaşlıqdan müttəfiqlik mərhələsinə



Azərbaycan və Qırğızıstan arasında münasibətlər son illərdə tarixi-mədəni bağlılıq, qarşılıqlı siyasi etimad və ortaq maraqlar əsasında dinamik inkişaf edərək nümunəvi tərəfdaşlıq modelinə çevrilib. Əlaqələrin möhkəmlənməsində dövlət başçılarının siyasi iradəsi və ardıcıl diplomatik təşəbbüslər həlledici rol oynayır. Bu baxımdan, Prezident İlham Əliyevin iyulun 30-da Qırğızıstana dövlət səfəri ikitərəfli münasibətlərin inkişafında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Səfər çərçivəsində Çolpon-Ata şəhərində keçirilən yüksək səviyyəli görüş, Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şuranın III iclası və aparılan danışıqlar əməkdaşlığın bütün istiqamətlər üzrə genişləndirilməsinə xidmət edən mühüm qərarlarla yadda qaldı. Əldə olunan razılaşmalar və imzalanan sənədlər göstərdi ki, Azərbaycan-Qırğızıstan əlaqələri artıq təkcə siyasi dialoqla məhdudlaşmır, hüquqi və institusional baxımdan da yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu addımlar gələcək əməkdaşlığın prioritetlərini müəyyənləşdirməklə yanaşı, strateji tərəfdaşlığın daha möhkəm əsaslar üzərində inkişafına əlverişli zəmin yaradır.

### Münasibətləri müttəfiqlik səviyyəsinə yüksəldən mühüm siyasi-hüquqi addım

Prezident İlham Əliyevin Qırğızıstana dövlət səfərinin ən mühüm nəticəsi, şübhəsiz ki, "Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"nin imzalanması oldu. Bu sənəd iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq mərhələsindən müttəfiqlik səviyyəsinə yüksəldiyini rəsmiləşdirən mühüm siyasi-hüquqi addımdır. Müqavilə Bakı ilə Bişkek arasında formalaşmış əməkdaşlığın hüquqi əsaslarını daha da möhkəmləndirməklə yanaşı, siyasi, iqtisadi, nəqliyyat, enerji və təhlükəsizlik sahələrində qarşılıqlı fəaliyyətin genişlənməsi üçün yeni imkanlar açır.

Sənəd siyasi etimadın, qarşılıqlı dəstəyin və uzunmüddətli əməkdaşlıq iradəsinin institusional əsaslarını gücləndirir. Müqavilənin əsasını dövlətlərin suveren bərabərliyi, müstəqilliyə və ərazi bütövlüyünə qarşılıqlı hörmət, daxili işlərə qarışmamaq və qarşılıqlı maraqların nəzərə alınması prinsipləri təşkil edir. Bu yanaşma ikitərəfli münasibətlərin yalnız siyasi dialoqla məhdudlaşmadığını, regional və beynəlxalq platformalarda da əlaqələndirilmiş fəaliyyət üçün möhkəm zəmin yaratdığını nümayiş etdirir.

Bununla yanaşı, tərəflərin bir-birinə qarşı yönəlmiş hər hansı ittifaq və ya bloklarda iştirak etməmək öhdəliyini təsdiqləməsi münasibətlərin qarşılıqlı etimad, müstəqil qərarvermə və strateji həmrəylik prinsiplərinə söykəndiyini göstərir.

Prezident İlham Əliyevin Qırğızıstan Prezidenti Sadır Japarov ilə mətbuata Birgə Bəyanatında vurğuladığı kimi, müttəfiqlik münasibətləri yalnız yüksək səviyyəli siyasi dialoq deyil, həm də qarşılıqlı məsuliyyət, etimad və uzunmüddətli strateji əməkdaşlıq öhdəliyidir: ***"Müttəfiqlik münasibətləri çox böyük məsuliyyət deməkdir və biz bu məsuliyyətə hazırıq. Biz bütün təşəbbüslərdə – həm beynəlxalq platformalarda, həm də iqtisadi-ticari sahədə və təhlükəsizliyin möhkəmləndirilməsində bir-birimizi bundan sonra da dəstəkləyəcəyik".***

Çolpon-Ata şəhərində dövlət başçılarına ali dövlət təltiflərinin – I dərəcəli "Manas" və "Heydər Əliyev" ordenlərinin təqdim olunması səfərin rəmzi yekunlarından biri olmaqla yanaşı, Azərbaycan ilə Qırğızıstan arasında münasibətlərin ən yüksək siyasi etimad və strateji müttəfiqlik səviyyəsinə yüksəldiyini nümayiş etdirdi.

### Siyasi-iqtisadi əməkdaşlıq genişlənir, qarşılıqlı etimad möhkəmlənir

İyulun 31-də Çolpon-Atada keçirilən Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şuranın III iclası iki ölkə arasında əməkdaşlığın yeni siyasi mərhələyə daxil olduğunu nümayiş etdirdi. İclas təkcə ikitərəfli münasibətlərin mövcud vəziyyətinin müzakirəsi ilə məhdudlaşmayaraq, gələcək əməkdaşlığın strateji istiqamətlərinin müəyyənləşdirilməsi baxımından da mühüm əhəmiyyət kəsb etdi. Ən vacib nəticə isə Azərbaycan ilə Qırğızıstan arasında münasibətlərin müttəfiqlik səviyyəsinə yüksəldilməsi istiqamətində siyasi iradənin bir daha təsdiqlənməsi oldu. Bu, qarşılıqlı etimadın yüksək səviyyəsini və əməkdaşlığın uzunmüddətli strateji maraqlar üzərində qurulduğunu göstərir.

Dövlətlərarası Şura son illərdə Azərbaycan-Qırğızıstan münasibətlərinin institusional əsaslarının möhkəmləndirilməsində mühüm rol oynayır. Məhz bu platforma çərçivəsində iqtisadiyyat, investisiya, nəqliyyat, energetika, təhsil, humanitar əlaqələr və turizm sahələrində qəbul edilən qərarlar ardıcıl şəkildə həyata keçirilir.

Son illərdə qarşılıqlı investisiyaların artması, Qırğız-Azərbaycan Fondunun fəaliyyətinin genişlənməsi, Azərbaycanın həyata keçirdiyi "Böyük Qayıdış" proqramına, xüsusilə Qarabağın bərpasına göstərilən dəstək, humanitar layihələrin icrası və turizm sahəsində yeni təşəbbüslər münasibətlərin məzmununu daha da zənginləşdirib.

Dövlət başçılarının çıxışları da əməkdaşlığın artıq konkret nəticələr üzərində qurulduğunu təsdiqlədi. Prezident İlham Əliyevin Qarabağın bərpasına Qırğızıstanın verdiyi dəstəyi, Ağdamda "Manas" adına məktəbin istifadəyə verilməsini, qarşılıqlı mədəniyyət günlərinin keçirilməsini və Qırğız-Azərbaycan Fondunun fəaliyyətini xüsusi vurğulaması göstərir ki, münasibətlər siyasi bəyanatlar mərhələsini geridə qoyaraq real layihələr və praktiki təşəbbüslərlə zənginləşən yeni inkişaf mərhələsinə daxil olub.

Fondun maliyyə imkanlarının artırılması barədə qəbul edilən qərar isə birgə investisiya layihələrinin genişləndirilməsi üçün yeni perspektivlər açır. Sitat: ***"Siz müxtəlif sahələrdə əməkdaşlığı qeyd etdiniz. Əlbəttə, mən bütün sahələrdə qarşıya qoyduğumuz məqsədlərin hamısına nail olunacağına əminəm. Şadam ki, Qırğız-Azərbaycan Fondu uğurla fəaliyyət göstərir. Fondun vəsaitlərinin artırılması barədə qərar qəbul etdik və bir neçə layihə artıq həyata keçirilir. Əminəm ki, fond inkişaf etdikcə layihələrin sayı da artacaq. Bu, ortaq məqsədlərimizə xidmət edəcək".***

Prezident Sadır Japarov çıxışında Qırğızıstan ilə Azərbaycan arasında həllini gözləyən heç bir siyasi məsələnin olmadığını xüsusi vurğuladı. Bu fikir iki ölkə arasında siyasi dialoqun yüksək səviyyəsini və əməkdaşlığın qarşılıqlı etimad əsasında inkişaf etdiyini göstərir. Hazırda tərəfdaşlığın əsas istiqamətləri iqtisadiyyat, nəqliyyat, enerji, investisiya, təhlükəsizlik və humanitar sahələrdə birgə təşəbbüslərin həyata keçirilməsi ilə xarakterizə olunur.

İclas zamanı turizm və infrastruktur sahələrində əməkdaşlığa da xüsusi diqqət yetirildi. İssık-Kul bölgəsində Azərbaycanın iştirakı ilə həyata keçirilən layihələr, o cümlədən "Bakı" hotelinin açılması, iki ölkənin qarşılıqlı sərmayə və regional inkişaf imkanlarından səmərəli istifadə etdiyini göstərir.

Azərbaycan və Qırğızıstanın Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığı da ikitərəfli münasibətlərin inkişafına mühüm təkan verir. Ortaq tarix, dil və mədəni irs üzərində qurulan bu tərəfdaşlıq son illərdə nəqliyyat-kommunikasiya layihələri, iqtisadi inteqrasiya, enerji və təhlükəsizlik sahələrində daha da möhkəmlənib.

Dövlətlərarası Şuranın III iclası bir daha göstərdi ki, Azərbaycan-Qırğızıstan münasibətləri artıq strateji tərəfdaşlıq çərçivəsini aşaraq müttəfiqlik mərhələsinə yüksəlib. Bu yeni mərhələ siyasi etimadın möhkəmlənməsini, institusional əməkdaşlığın genişlənməsini və Türk dünyasında inteqrasiyanın dərinləşməsinə xidmət edən uzunmüddətli əməkdaşlıq modelinin formalaşdığını nümayiş etdirir.



Prezident İlham Əliyevin Qırğızıstana dövlət səfəri və səfər çərçivəsində əldə olunan razılaşmalar Azərbaycan-Qırğızıstan münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçdiyini göstərdi. Müttəfiqlik münasibətləri haqqında Müqavilənin imzalanması iki ölkə arasında formalaşmış yüksək siyasi etimadın hüquqi ifadəsi olmaqla yanaşı, gələcək əməkdaşlığın daha geniş və sistemli əsaslar üzərində inkişafına imkan yaradır. Azərbaycan və Qırğızıstan əlaqələri yalnız tarixi-mədəni yaxınlıq və siyasi həmrəyliklə deyil, həm də konkret iqtisadi layihələr, qarşılıqlı investisiyalar, humanitar təşəbbüslər və regional əməkdaşlıq imkanları ilə xarakterizə olunur. Dövlətlərarası Şuranın fəaliyyəti, birgə fondun imkanlarının genişləndirilməsi və həyata keçirilən layihələr göstərir ki, tərəflər münasibətləri praktiki nəticələr üzərində qurmağa xüsusi önəm verirlər. Yeni müttəfiqlik mərhələsi iki ölkə arasında əməkdaşlığın daha da möhkəmlənməsinə, Türk dünyasında inteqrasiya proseslərinin sürətlənməsinə, regional sabitlik və iqtisadi inkişafın təşviqinə mühüm töhfə verəcək.

Nail ƏSGƏROV

## "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 28 (Cild I); 2024, № 5 (I kitab), maddə 526, № 7, maddə 805; 2025, № 2, maddə 124, № 7, maddə 632, № 9, maddə 817, № 12 (I kitab), maddə 1147; 2026, № 3, maddə 228) 3.25.4-cü yarımbəndində "Respublikası Ali Məclisinin sədri" sözləri "Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 440 (Cild I); 2024, № 5 (I kitab), maddə 526; 2025, № 5, maddə 444, № 9, maddə 817; 2026, № 3, maddə 228, № 4, maddə 315; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 29 iyun tarixli 702 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bənd üzrə:

2.1.1. 2.1.3.14-cü abzasdan ", Naxçıvan Muxtar Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsman)" sözləri çıxarılsın;

2.1.2. 2.1.4.23-cü və 2.1.5.7-ci abzaslar aşağıdakı redaksiyada verilsin:

"2.1.4.23. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Aparatı rəhbərinin müavini və həmin Aparatda şöbə müdiri, Naxçıvan Muxtar Respublikasının Prokurorluğunda şöbə müdiri;";

"2.1.5.7. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparatında şöbə müdirinin müavini;";

2.1.3. 2.1.6.2-ci abzasdan "Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın)," sözləri çıxarılsın;

2.1.4. 2.1.6.4-cü abzasda "və Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) köməkçiləri" sözləri "köməkçisi" sözü ilə əvəz edilsin;

2.2. 2.3.3-cü yarımbəndin 1-ci abzasından "Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın)," sözləri çıxarılsın.

3. "Azərbaycan Respublikasında yaradılmış milli parkların əsasnamələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 106 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 614 (Cild I) ilə təsdiq edilmiş "Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkı haqqında Əsasnamə"nin 1.3-cü bəndindən "və Naxçıvan Muxtar Respublikasının Ali Məclisi sədrinin" sözləri çıxarılsın.

4. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 3 mart tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 3, maddə 172 (Cild I); 2024, № 4, maddələr 374, 397; 2025, № 9, maddə 817; 2026, № 2, maddə 123) ilə təsdiq edilmiş "Xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısı"nın 2.8-ci bəndi ləğv edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 iyul tarixli 206 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 788 (Cild I) ilə təsdiq edilmiş "Dövlət orqanlarında əmək münasibətləri əmək müqaviləsi kağız üzərində yazılı formada bağlandıqda yaranan vəzifələrin (peşələrin) Siyahısı"nın 3-cü hissəsində "Respublikası Ali Məclisinin sədri" sözləri "Respublikasının Nazirlər Kabineti (dövlət qulluğu vəzifələri istisna olmaqla)" sözləri ilə əvəz edilsin.

6. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 671 (Cild I); 2024, № 7, maddələr 788, 806, № 8, maddə 950; 2025, № 5, maddə 450, № 7, maddə 659) 2.5-ci bəndində "ali vəzifəli şəxsi" sözləri "Nazirlər Kabineti" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025, № 2, maddə 127, № 3, maddə 232, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 8, maddələr 756, 763, № 9, maddə 820, № 10, maddə 898, № 11, maddələr 1018, 1036; 2026, № 1, maddə 36, № 2, maddə 123, № 3, maddə 226, № 4, maddə 307; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 6 may tarixli 660 nömrəli, 2 iyun tarixli 676 nömrəli, 19 iyun tarixli 686 nömrəli və 15 iyul tarixli 722 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 27-ci hissəsindən ", Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili, onun Aparatının rəhbəri, Aparat rəhbərinin müavini" sözləri çıxarılsın.

8. "Xüsusi rabitə ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 622 (Cild I); 2024, № 3, maddə 262, № 4, maddə 397, № 5 (I kitab), maddə 526, № 6 (I kitab), maddə 657, № 8, maddə 948, № 11, maddə 1197; 2025, № 3, maddələr 224, 232, № 5, maddə 444, № 7, maddə 658, № 9, maddə 817, № 11, maddə 1018, № 12 (I kitab), maddə 1151; 2026, № 2, maddə 123; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli 673 nömrəli və 15 iyul tarixli 723 nömrəli fərmanları) ilə təsdiq edilmiş Əlavə 2 – "Xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı"nın 9.6-cı bəndi ləğv edilsin.

9. Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 626 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2026, № 3, maddə 230; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 29 iyun tarixli 702 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Dövlət qulluğunun inzibati və yardımçı vəzifələri üzrə əməyin ödəniş səviyyələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

9.1. 1-ci hissə üzrə:

9.1.1. 1.7.13-cü, 1.9.7-ci, 1.11.12-ci, 1.15.5-ci və 1.19.4-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"1.7.13. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Aparatının rəhbəri;";

"1.9.7. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Aparatı rəhbərinin müavini;";

"1.11.12. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparatında şöbə müdiri;";

"1.15.5. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparatında şöbə müdirinin müavini;";

"1.19.4. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparatında sektor müdiri, baş mühasib;";

9.1.2. 1.19.9-cu yarımbənd ləğv edilsin;

9.1.3. 1.20.4-cü, 1.21.4-cü və 1.22.3-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"1.20.4. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparatında baş məsləhətçi;";

"1.21.4. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparatında böyük məsləhətçi;";

"1.22.3. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparatında aparıcı məsləhətçi;";

9.1.4. 1.23.3-cü yarımbənd ləğv edilsin;

9.2. 2.10.1-ci, 2.11.1-ci, 2.12.1-ci və 2.13.1-ci yarımbəndlərdən "Naxçıvan Muxtar Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsman)," sözləri çıxarılsın.

10. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 347 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 186 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2026, № 4, maddə 315) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının rayon, şəhər, şəhərlərdə rayon icra hakimiyyəti başçılarının aparatlarında sənədlərlə iş barədə Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

10.1. 23-cü bənddən "ali vəzifəli şəxsin və" sözləri çıxarılsın və həmin bənddə "xarakterli" sözü "hüquqi" sözü ilə əvəz edilsin;

10.2. 100-cü bəndin ikinci abzasının dördüncü cümləsi çıxarılsın.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 28 iyul 2026-cı il*

## "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 5-ci, 16-cı və 19-cu bəndlərini rəhbər tutaraq, "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413 (Cild I); 2024, № 5 (I kitab), maddə 486, № 12 (II kitab), maddə 1329; 2025, № 6, maddə 529; 2026, № 1, maddə 7) 94-cü maddəsinin dördüncü hissəsi ləğv edilsin.

**Maddə 2.** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1 (Cild I); 2024, № 5 (I kitab), maddə 489, № 7, maddə 748, № 8, maddə 934; 2025, № 2, maddə 96, № 6, maddə 539, № 7, maddə 606, № 12 (I kitab), maddə 1123; 2026, № 1, maddə 15, № 3, maddə 210; Azərbaycan Respublikasının 2026-cı il 19 iyun tarixli 425-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.2-ci maddədən "Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (ombudsmana)," sözləri çıxarılsın;

2.2. 8.1.3-cü maddədən "Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Aparatı," sözləri çıxarılsın.

**Maddə 3.** "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208 (Cild I); 2024, № 2, maddə 137, № 5 (I kitab), maddələr 489, 491, № 6 (I kitab), maddə 644; 2025, № 1, maddə 16, № 2, maddələr 96, 105, № 4 (I kitab), maddə 322, № 6, maddə 528; 2026, № 1, maddə 8, № 3, maddə 209) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 20-ci maddə üzrə:

3.1.1. 20.1.6-cı maddədən hər iki halda "və Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman)" sözləri çıxarılsın;

3.1.2. 20.1.6-1-ci maddədən ", Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) və sabiq müvəkkili (ombudsman)" sözləri çıxarılsın;

3.1.3. 20.9-cu maddədə "şəxslərin" sözü "şəxsin" sözü ilə əvəz edilsin;

3.1.4. 20.9-1-ci maddədən ", Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın)" sözləri çıxarılsın;

3.2. 37.3.4-cü maddədə beşinci halda "şəxslər həmin maddədə sadalanan vəzifələrdə" sözləri "şəxs həmin maddədə qeyd edilən vəzifədə" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** Keçid müddəa

Bu Qanun qüvvəyə minənədək Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) kimi azı səlahiyyət müddətinin yarısı qədər sığorta stajı olan şəxslərə və onların ailə başçısını itirməyə görə əmək pensiyası almaq hüququ olan ailə üzvlərinə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun həmin tarixədək qüvvədə olan normaları tətbiq edilir.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 7 iyul 2026-cı il*

# Vətəni qorumaq şərəfli yoldur, şərəfli vəzifədir



### Naxçıvanlılar sərhəd təhdidlərinə baxmayaraq, müstəqilliyin qorunmasında böyük rol oynayıblar

SSRİ-nin 70 illik tikanlı sərhəd səddi Naxçıvanda 1989-cu il dekabrın 31-də söküldü. Azadlıq və müstəqillik arzusu ilə meydanlara axışan insanların qarşısında tab gətirə bilməyən sovet ordusunun Naxçıvandan çıxarılmasına isə Ulu Öndərin Vətənə qayıdışından sonra nail olundu. Həmin illərdə Naxçıvan əhalisi ağır iqtisadi və sosial çətinliklərə, blokadaya, sərhəd təhdidlərinə baxmayaraq, Azərbaycanın müstəqilliyini qorunması naminə böyük fədakarlıq göstərdi. Bu baxımdan, Şərur rayonu xüsusilə seçilirdi. Sərhədboyu yaşayan sakinlər keşik çəkərək mümkün hücumların qarşısının alınması üçün müdafiə tədbirlərində fəal iştirak edirdilər. Həmin illərdə sərhəd qoşunlarının formalaşdırılması ciddi çətinliklərlə müşahidə olunurdu. Dövlət sərhədindəki mühəndis-texniki qurğular dağıdılmış, hərbi texnika və digər vasitələr yararsız hala salınmışdı. Ölkə ərazisinin 20 faizinin ermənilər tərəfindən işğalı nəticəsində dövlət sərhədinin nəzarətsiz qalmış 132 kilometr hissəsində yaranmış vəziyyətdən faydalanmağa çalışan qüvvələr təhlükəni daha da artırmışdı. Bütün bunlara baxmayaraq, 1991-1992-ci illərdə sovet sərhədçilərinin Naxçıvan ərazisindən çıxarılması və milli sərhəd mühafizəsinin yaradılması prosesi Heydər Əliyevin qətiyyətli siyasi iradəsi və uğurlu danışıqları nəticəsində həyata keçirildi.

Bu proses Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyinin təmin edilməsində mühüm tarixi mərhələ oldu.

1992-ci il oktyabrın 18-də Naxçıvan Sərhəd Dəstəsində Azərbaycan Respublikası milli sərhədçilərinin ilk andiçmə mərasimi keçirildi. Ulu Öndər sərhədçiləri təbrik edərək demişdi: ***"Siz müstəqil Azərbaycanın sərhədlərinin toxunulmazlığını, respublikamızın ərazi bütövlüyünü təmin edən sərhəd qoşunlarının sıralarında xidmət etməyə başlayırsınız. Siz indi müstəqil Azərbaycan dövlətinə sədaqətlə xidmət etmək andı içdiniz. Bu and müqəddəs anddır".***

### Dövlət sərhədinin mühafizəsi işində mühüm irəliləyişlər

1993-cü ilin iyununda Azərbaycanda hakimiyyətə qayıdan dahi öndər Heydər Əliyevin rəhbərliyi ilə dövlət sərhədlərinin mühafizəsi sahəsində islahatlara başlanıldı. Milli sərhəd qoşunlarının formalaşdırılması, onların peşəkar hərbi quruma çevrilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirildi. Keçmiş sovet sərhədçilərinin ölkə ərazisindən tam çıxarılması prosesi başa çatdırıldı, sərhəd mühafizəsinin etibarlı təşkili üçün zəruri addımlar atıldı. Kadr hazırlığı gücləndirildi, müasir idarəetmə sistemi formalaşdırıldı, sərhəd aviasiyası yaradıldı və dövlət sərhəddində baş verən hadisələrə operativ reaksiya imkanları genişləndirildi. 2002-ci il iyulun 31-də Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə Dövlət Sərhəd Xidməti müstəqil qurum kimi fəaliyyətə başladı. Bu qərar Azərbaycanın milli sərhəd quruculuğunda yeni mərhələnin əsasını qoydu.

### Milli sərhəd quruculuğu uğurla davam etdirildi

Ulu Öndərin milli sərhəd quruculuğu istiqamətindəki fəaliyyətini uğurla davam etdirən Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etməyə başladığı ilk gündən milli sərhəd quruculuğu siyasəti yeni mərhələyə qədəm qoydu. Müasir sərhəd dəstələri yaradıldı, hərbi hissələr və qarnizon kompleksləri əsaslı şəkildə yenidən quruldu, sərhəd mühafızəsinin maddi-texniki bazası daha da gücləndirildi. Xəzər dənizində ölkəmizin maraqlarının etibarlı qorunması məqsədilə sahil mühafizəsi inkişaf etdirildi.

Eyni zamanda sərhəd-buraxılış məntəqələri beynəlxalq standartlara uyğunlaşdırıldı, sənədlərin yoxlanılması və sərhəd nəzarəti müasir texnologiyalar əsasında təşkil olundu. Avtomatlaşdırılmış informasiya sistemlərinin tətbiqi sərhəd təhlükəsizliyinin etibarlılığını daha da artırdı və miqrasiya prosesləri üzərində nəzarətin gücləndirilməsinə imkan yaratdı.

2007-ci ildə Dövlət Sərhəd Xidmətinin Akademiyasının yaradılması isə peşəkar sərhədçi kadrların hazırlanmasında mühüm mərhələ oldu.

### Vətən savaşında DSX-nin Sərhəd Qoşunlarının xüsusi qəhrəmanlığı

44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər nəticəsində Azərbaycanın İranla dövlət sərhədinin 132 kilometrlik hissəsi tam nəzarətə götürüldü. 2023-cü il aprelin 23-də Həkəri çayı üzərində Laçın sərhəd-buraxılış məntəqəsinin yaradılması ilə ölkəmizin dövlət suverenliyi tam bərpa olundu, dövlət sərhəddindən qanunsuz keçidlərin və silah-sursat daşınmasının qarşısı alındı. Vətən müharibəsi zamanı Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunları və Çevik Hərəkət Qüvvələri Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşa istiqamətlərində gedən döyüşlərdə yüksək şücaət göstərmişdilər. Füzuli, Hadrut və Xudafərin körpüsü istiqamətində qarşıya qoyulmuş döyüş tapşırıqları uğurla yerinə yetirildi. Qədim Xudafərin körpüsündə və dövlət sərhədi boyunca müqəddəs, üçrəngli Azərbaycan Bayrağının ucaldılması tarixi zəfərin rəmzinə çevrildi. Müasir pilotsuz uçuş aparatlarının peşəkar tətbiqi nəticəsində düşmənin strateji əhəmiyyətli döyüş texnikaları, raket sistemləri, komanda idarəetmə məntəqələri və çoxsaylı canlı qüvvəsinə ciddi zərbələr vuruldu. Vətən müharibəsində Dövlət Sərhəd Xidmətinin 47 hərbi qulluqçusu şəhid olub, 197 nəfər yaralanıb. Döyüş əməliyyatları zamanı şəxsi igidlik nümunəsi göstərmiş 12 sərhədçi (4 nəfəri ölümündən sonra) "Vətən müharibəsi qəhrəmanı" adına layiq görülüb, 176 nəfər müxtəlif ordenlərlə, 5203 nəfər isə müxtəlif medallarla təltif olunub. Prezident İlham Əliyev sərhədçilərin xidmətini dəyərləndirərək bildirib: ***"...Sərhədçilərimizin ümumi zəfərimizdə rolu çox böyükdür. Mən bunu qiymətləndirirəm..."***




### Zəfər bayrağımız sərhədimizdə qürurla dalğalanır

2020-ci il oktyabrın 16-da Cəbrayıl rayonu ərazisindəki "Çaxırlı", "Mahmudlu", oktyabrın 30-da Cəbrayıl və Zəngilan rayonları ərazisindəki "Soltanlı", "Xələfli", "Xudafərin" və "Qumlaq" sərhəd zastavalarında Dövlət Bayrağı ucaldıldı. Noyabrın 9-da isə Dövlət Sərhəd Xidmətinin Zəngilan rayon ərazisində Mincivan qəsəbəsində sərhəd zastavasında üçrəngli, ay-ulduzlu zəfər bayrağı dalğalandı. Qələbə ilə başa çatan və Azərbaycan tarixinin ən şanlı səhifəsi olan Vətən savaşı bitən kimi ilk iş düşməndən azad edilmiş dövlət sərhədimizdə hərbi quruculuğun bərpa edilməsi və sərhədlərimizin etibarlı şəkildə mühafizəsi oldu. Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarına uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə sərhəd mühafizəsinin təşkili istiqamətində geniş quruculuq işləri həyata keçirildi. Dövlət sərhədi boyunca onlarla sərhəd zastavası əsaslı təmir edildi və ya yenidən qurularaq xidməti-döyüş fəaliyyətinə başladı.

Bu gün Azərbaycan Ordusunun qəhrəman hərbçiləri Kəlbəcərin keçilməz zirvələrində, Soyuğun qarlı aşırımlarında, Kürün, Arazın sahilində, Xəzərin dərin sularında, aydın səmamızda qış-yay demədən dövlətimizin keşiyində dayanır və hər addımda Vətənin sərhədinin keçilməz olduğunu sübut edir.

✍ **Ramiyə ƏKBƏROVA**

# Ana dilimiz – milli kimliyimizin əbədi möhürü və dövlətçiliyimizin dayağı



Dünyada hər bir xalqı tanıdan, onun tarixi yaddaşını, milli ruhunu və mədəniyyətini yaşadan ən böyük mənəvi sərvət ana dilidir. Dövlət sərhədləri dəyişə, ictimai-siyasi quruluşlar zamanın axarında tarixə çevrilə bilər. Lakin xalqın dili yaşayırsa, həmin xalq da yaşayır. Məhz buna görə Azərbaycan xalqı tarixboyu ana dilini milli varlığının ayrılmaz hissəsi kimi qoruyub yaşatmışdır.

Hər il 1 avqustun “Azərbaycan əlifbası və Azərbaycan dili günü” kimi qeyd olunması təkcə təqvim hadisəsi deyil, xalqımızın mənəvi yaddaşına, milli kimliyinə və dövlətçilik ənənələrinə verilən yüksək dəyərin ifadəsidir. Bu əlamətdar gün Ümummilli Lider Heydər Əliyevin 9 avqust 2001-ci il tarixli Sərəncamı ilə təsis edilmişdir. Məhz həmin dövrdə latın qrafikalı Azərbaycan əlifbasına tam keçid başa çatdırılmış, ölkəmizin ictimai-siyasi, elmi və mədəni həyatında yeni mərhələnin əsası qoyulmuşdur.

Azərbaycan dili türk dilləri ailəsinin ən zəngin qollarından biridir. Minilliklər boyu xalqımızın düşüncə tərzi, ədəbiyyatı, folkloru, musiqisi, adət-ənənələri və dövlətçilik təfəkkürü bu dildə formalaşmışdır. “Kitabi-Dədə Qorqud”dan Nizami Gəncəviyə, İmadəddin Nəsimidən Məhəmməd Füzuliyə, Mirzə Fətəli Axundzadədən Cəlil Məmmədquluzadəyə, Bəxtiyar Vahabzadədən Xəlil Rza Ulutürkə, Məmməd Araza qədər böyük söz ustaları öz yaradıcılıqları ilə Azərbaycan dilinin qüdrətini, zənginliyini və tükənməz ifadə imkanlarını nümayiş etdirmişlər.

Lakin tariximizin müəyyən dövrlərində ana dilimiz ciddi sınaqlarla üzləşmişdir. Çar Rusiyası dövründə və sovet ideoloji sistemində Azərbaycan dilinin dövlət idarəçiliyində, təhsil və elmi mühitdə istifadəsi müxtəlif məhdudiyyətlərlə qarşılaşırdı. Buna baxmayaraq, xalqımız öz ana dilini qoruyub yaşatmağı bacardı. Milli ziyalıların fəaliyyəti, maarifçilik hərəkatı və ədəbi proseslər Azərbaycan dilinin inkişafına mühüm töhfələr verdi.

Azərbaycan dilinin dövlət dili kimi möhkəmləndirilməsi isə bilavasitə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. 1969-cu ildə respublikaya rəhbər seçildikdən sonra O, milli-mənəvi dəyərlərin qorunmasını dövlət siyasətinin əsas istiqamətlərindən biri elan etdi. Bu siyasətin ən mühüm nailiyyətlərindən biri 1978-ci ildə qəbul edilən Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması idi. Sovet ideologiyasının hökm sürdüyü bir dövrdə belə bir qərarın qəbul edilməsi böyük siyasi uzaqgörənliyin və milli cəsarətin təzahürü idi.

Ümummilli Lider həmişə deyirdi ki, ***“Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir”.*** Bu fikir onun bütün siyasi fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edirdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra da böyük dövlət xadimi Heydər Əliyev Azərbaycan dilinin inkişafını dövlət quruculuğunun mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirdi. 1995-ci ildə qəbul edilən müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit olundu. Bu, dövlət müstəqilliyimizin hüquqi əsaslarının mühüm tərkib hissəsi idi.

## Prezident İlham ƏLİYEV:

***“Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər. Yenə də deyirəm, 10 il bundan əvvəl mən bu məsələni qaldırmışdım. Çünki bu məni narahat edirdi. On il ərzində lazımi tədbirlər görüldü ki, biz dilimizi kənar kəlmələrdən qoruya bilək. Amma yenə də oradan-buradan eşidirəm, – həm televiziyalarda, həm yazılı mediada, həm bəzi insanların çıxışlarında, – buna heç bir gərək yoxdur. Yəni biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər.”***

2001-ci il isə Azərbaycan dili tarixində yeni mərhələnin başlanğıcı oldu. Avqustun 1-dən bütün dövlət idarələrində, mətbuatda, təhsil müəssisələrində və rəsmi sənədlərdə latın qrafikalı Azərbaycan əlifbasının tam tətbiqinə başlanıldı. Ardınca imzalanan Sərəncamla 1 avqust “Azərbaycan əlifbası və Azərbaycan dili günü” elan edildi. Bununla Azərbaycan xalqı yeni əsrə milli əlifbası ilə qədəm qoydu.

Latın qrafikalı əlifbaya keçid yalnız texniki dəyişiklik deyildi. Bu addım Azərbaycanın dövlət müstəqilliyini, Türk dünyası ilə mədəni yaxınlığını, dünya informasiya məkanına inteqrasiyasını və milli dövlətçilik ideologiyasını əks etdirən mühüm tarixi hadisə kimi yadda qaldı.

Bu gün Ümummilli Liderin müəyyən etdiyi dil siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son illərdə Azərbaycan dilinin qorunması, zənginləşdirilməsi və beynəlxalq nüfuzunun artırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, dövlət dilinin hüquqi müdafiəsi daha da gücləndirilmişdir.

Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlar Azərbaycan dilinin tətbiq dairəsinin genişləndirilməsinə, saflığının qorunmasına və ədəbi dil normalarına riayət olunmasına mühüm töhfə verib. Televiziya və radio məkanında, reklam lövhələrində, elektron informasiya resurslarında və digər ictimai kommunikasiya vasitələrində dövlət dilindən düzgün istifadə daim diqqət mərkəzində saxlanılır.

Xüsusilə “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Fərman ana dilimizin müasir dövrdə qorunması istiqamətində mühüm əhəmiyyət daşıyır. Sənəddə informasiya texnologiyalarının sürətli inkişafı şəraitində Azərbaycan dilinin yad təsirlərdən qorunması, yeni terminlərin milli dilimizin daxili imkanları əsasında formalaşdırılması və dil mədəniyyətinin yüksəldilməsi əsas vəzifələr kimi müəyyən edilib.

Bununla yanaşı, Prezident İlham Əliyevin təsdiq etdiyi “Azərbaycan mədəniyyəti – 2040” Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası da dilimizin və milli kimliyimizin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Son illərdə Azərbaycan Milli Elmlər Akademiyasında və ali təhsil müəssisələrində dilçilik sahəsində fundamental tədqiqatlar genişlənmiş, yeni orfoqrafiya və orfoepiya lüğətləri hazırlanmış, terminoloji lüğətlər nəşr edilmişdir. Azərbaycan dilinin elektron korpusunun yaradılması, rəqəmsal lüğət bazalarının formalaşdırılması və süni intellekt texnologiyalarında dilimizin tətbiqi istiqamətində mühüm layihələr həyata keçirilir.

Bu gün Azərbaycan dili yalnız ölkə daxilində deyil, beynəlxalq aləmdə də geniş yayılır. Xarici universitetlərdə Azərbaycan dili və mədəniyyəti üzrə mərkəzlər fəaliyyət göstərir. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız üçün həftəsonu məktəbləri təşkil edilir, ana dilimizin öyrədilməsi məqsədilə dərsliklər hazırlanır, elektron tədris platformaları yaradılır. Bu istiqamətdə Heydər Əliyev Fondu və aidiyyəti dövlət qurumlarının fəaliyyəti xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan dilinin beynəlxalq nüfuzunun artmasında Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət də mühüm rol oynayır. Ölkəmizin beynəlxalq təşkilatlarda mövqeyinin möhkəmlənməsi, humanitar layihələrdə fəal iştirakı və mədəniyyətlərarası dialoqa verdiyi töhfələr Azərbaycan dilinə marağın daha da artmasına zəmin yaradır.

Bununla yanaşı, müasir dövr ana dilimiz qarşısında yeni çağırışlar da formalaşdırır. İnternet və sosial şəbəkələrin sürətli inkişafı bəzi hallarda ədəbi dil normalarının pozulmasına, əcnəbi sözlərdən həddindən artıq istifadəyə səbəb olur. Belə şəraitdə hər bir vətəndaş ana dilinə həssaslıqla yanaşmalı, onu düzgün danışmağa və düzgün yazmağa çalışmalıdır. Çünki dil yalnız dilçilərin deyil, bütövlükdə, xalqın mənəvi sərvətidir.

Xüsusilə gənc nəslin ana dilinə sevgi ruhunda tərbiyə olunması bu gün mühüm vəzifələrdəndir. Məktəbdə, ailədə, ali təhsil müəssisələrində, mediada və sosial şəbəkələrdə Azərbaycan dilinin zəngin imkanlarının təbliği milli vətəndaşlıq tərbiyəsinin mühüm istiqamətlərindən biridir.

Böyük şair Bəxtiyar Vahabzadənin: *“Ana dilim, səndədir xalqımın qəlbi, ruhu, varlığı...”* misraları ana dilimizin xalqımız üçün daşıdığı müqəddəs dəyəri dolğun şəkildə ifadə edir. Bu gün Azərbaycan dili müstəqil dövlətimizin əsas atributlarından biridir. Bayrağımız, gerbimiz və Dövlət Himnimiz kimi, dövlət dilimiz də milli suverenliyimizin ayrılmaz rəmzidir. Dövlət dilinə hörmət dövlətə, milli kimliyə və tarixi irsimizə hörmət deməkdir.

1 avqust – Azərbaycan əlifbası və Azərbaycan dili günü hər bir azərbaycanlı üçün qürur və iftixar günüdür. Bu əlamətdar tarix bizi milli köklərimizə, mənəvi dəyərlərimizə və dövlətçilik ənənələrimizə daha möhkəm bağlayır. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dil siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycan dilinin gələcəyinə inamı daha da gücləndirir.

1 avqust – Azərbaycan əlifbası və Azərbaycan dili günü milli dövlətçilik tariximizin, milli kimliyimizin və mənəvi dəyərlərimizin təntənəsidir. Bu əlamətdar gün bizə bir daha xatırladır ki, ana dilini qorumaq Vətəni qorumaq qədər müqəddəs və şərəfli vəzifədir. Ana dilimizin saflığının və zənginliyinin qorunması, onun nüfuzunun daha da yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər gələcək nəsillərə ötürülən ən qiymətli mənəvi irslərdəndir. Bu irsi yaşatmaq isə hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur.

Ana dilimizi qoruyaq, sevək, zənginləşdirək və gələcək nəsillərə saf şəkildə çatdıraq. Çünki dilini yaşadan xalqın gələcəyi də yaşayır.

**Əbülfəz QULİYEV**
***AMEA-nın müxbir üzvü, professor, AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru***

# Hər bir azərbaycanlının Prezidenti



## Müdrikliyin miqyası

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycanın 1993-cü ildən sonra keçdiyi inkişaf yolu, əldə etdiyi mühüm nəticələr və artıq 2003-cü ilə qədər özünü doğrultmuş strateji inkişaf xəttinin davam etdirilməsi zərurəti Ümummilli Liderin 1 oktyabr 2003-cü il tarixli müraciətində də dolğun şəkildə əsaslandırılmışdır. Dövlətçilik təcrübəsinin mənimsənilməsi, strateji baxışın formalaşdırılması və dövlətin inkişafının uzunmüddətli, ardıcıl proseslər üzərində qurulduğunun dərk edilməsi baxımından həmin müraciət bu gün də öz aktuallığını qoruyur və gələcək nəsillər üçün mühüm siyasi məktəb hesab edilə bilər.

Ümummilli Lider xalqımıza müraciətində 15 oktyabr prezident seçkilərində öz siyasi varisi, o zaman Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini olan cənab İlham Əliyevi dəstəkləməyə çağıraraq deyirdi: ***"O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".***

## Şərəf və qürur dolu yolun strateji xəritəsi

Müstəqil dövlətimizin memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin böyük inam və ümidləri işığında 2003-cü il oktyabrın 15-də xalqın etimadını qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyev ölkəmizi tarixinin ən qüdrətli mərhələsinə aparacaq inkişaf yolunun əsasını elə fəaliyyətinin ilk günlərindən qoydu.

O hələ andiçmə mərasimində böyük hədəflərə doğru yolu aydın nişan verərək tarixin ən qüdrətli Azərbaycanını xəyallarında yaşadan hər kəsdə bu strateji yolda birgə, çiyin-çiyinə irəliləməyə, amallarından dönməməyə, nəticələrin mütləq arzuladığımız kimi olacağına əminlik yaradırdı.

Həmin andiçmə mərasimindəki çıxışın mətnini illər sonra tarixçi nəzəri ilə yenidən gözdən keçirdikcə, hər cümləsi üzərində düşündükcə, o kəlmələrlə müasir reallıqlar arasında paralellər apardıqca əmin olursan ki, cənab İlham Əliyev o zaman Azərbaycan xalqı qarşısında, sadəcə, and içmirmiş, tarixin ən qüdrətli Azərbaycanına gətirib çıxaracaq böyük, çətin və əzab-əziyyətli, amma şərəf və qürur dolu yolun dəqiq strateji xəritəsini təqdim edirmiş.

Cənab İlham Əliyev dilə gətirdiyi bütün sözləri, verdiyi bütün ümidləri bu illərdə Ona inanan, ardınca addım-addım milli məqsədlərə doğru irəliləyən milyonlarla vətəndaşımızla birgə reallığa çevirdi.

Prezident deyirdi ki, biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik – bu gün Azərbaycan müasir dünyamızın ən zəngin, qüdrətli dövlətləri sırasındadır və dayanıqlı inkişafı ilə öz mövqeyini getdikcə yüksəldir.

Dövlət başçısı Azərbaycanın güclü orduya malik olmasının həyati əhəmiyyət daşıdığını da xüsusi vurğulayırdı. O bildirirdi ki, Silahlı Qüvvələr qarşıda duran bütün vəzifələri yerinə yetirmək iqtidarında olmalıdır. Sonrakı dövrdə həyata keçirilən ardıcıl islahatlar nəticəsində Azərbaycan Ordusu hərbi hazırlığı, maddi-texniki təminatı və döyüş qabiliyyəti baxımından dünyanın güclü orduları sırasında yer aldı.

Eyni zamanda Vətənə, dövlətə və milli maraqlara sədaqətli, torpaqların müdafiəsi naminə canından keçməyə hazır vətənpərvər bir nəsil yetişdirdi.

Prezident İlham Əliyev əminliklə bildirirdi ki, Azərbaycanın iqtisadi potensialı ordunun ən yüksək standartlara uyğun inkişafına imkan verəcək. Həqiqətən də, Ulu Öndərin müəyyən etdiyi inkişaf strategiyasının ardıcıl davam etdirilməsi nəticəsində Azərbaycan qısa müddətdə sosial-iqtisadi göstəricilərinə görə regionun lider dövlətinə çevrildi. Ölkədə həyata keçirilən genişmiqyaslı quruculuq və abadlıq işləri, yüksələn həyat səviyyəsi, iqtisadi gücün artması ordu quruculuğuna da geniş imkanlar yaratdı.

Eyni zamanda Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsi, etibarlı tərəfdaş kimi mövqeyinin möhkəmlənməsi və geosiyasi proseslərdə artan rolu Silahlı Qüvvələrin ən müasir silah və texnologiyalarla təchiz olunmasına, müdafiə potensialının daha da gücləndirilməsinə şərait yaratdı.

Azərbaycan dövləti cənab İlham Əliyevin rəhbərliyi ilə gələcəyə, yüksəlişə və inkişafa doğru dahi şəxsiyyət Heydər Əliyevin əsasını qoyduğu yolla inamla irəliləyir. Ötən illərin nəticələri göstərir ki, dövlət başçısı fəaliyyətini Ulu Öndərin müstəqillik, dövlətçilik və milli inkişaf ideyalarının ardıcıl həyata keçirilməsinə həsr etmiş, ölkəmizi sosial-iqtisadi inkişafı, siyasi sabitliyi, hüquqi dövlət quruculuğu və beynəlxalq nüfuzu ilə dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevirmişdir.

## Çoxəsrlik tariximizin ən böyük uğuru

Xalqımız öz liderinin – Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək müasir Azərbaycan tarixinin ən böyük uğurunu – bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. 44 gün davam edən və işğal altındakı ərazilərimizin azad olunması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Prezident İlham Əliyevin uzaqgörən və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan, təxminən, 30 il davam edən münaqişədə qalib tərəf oldu, ərazi bütövlüyünü bərpa etdi və beynəlxalq hüququn norma və prinsiplərinin icrasını öz gücü ilə təmin etdi.

Prezident İlham Əliyev yalnız hərb meydanında müzəffər sərkərdə kimi deyil, diplomatik cəbhədə də böyük strateq nümunəsi ortaya qoydu. İnformasiya müharibəsində Azərbaycanın haqq səsini dünya ictimaiyyətinə çatdırdı, müxtəlif beynəlxalq media orqanlarına verdiyi müsahibələrlə ölkəmizin ədalətli mövqeyini əsaslandırdı və bütün təzyiqlərə qətiyyətlə sinə gərdi. Xalq bir daha əmin oldu ki, onun Prezidenti milli maraqların müdafiəsində prinsipial və qətiyyətli mövqe nümayiş etdirir. Prezident İlham Əliyevin müharibə günlərində səsləndirdiyi ***"Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan hərbi birləşmələrinin heç bir hədəfi, heç bir məqsədi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və torpaqlarımızı işğaldan azad edəcəyik"*** fikri Azərbaycanın ədalətli mövqeyinin ən dolğun ifadələrindən biri idi.

Ermənistanın 2020-ci il sentyabrın 27-də başladığı növbəti hərbi təcavüzə cavab olaraq Azərbaycan Ordusunun həyata keçirdiyi əkshücum əməliyyatı 44 gün sonra parlaq qələbə ilə başa çatdı. Nəticədə, işğal altındakı torpaqlar azad edildi, Ermənistan ordusu məğlub edildi və Azərbaycanın ərazi bütövlüyünün bərpası təmin olundu.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli Ordumuzun həyata keçirdiyi "dəmir yumruq" əməliyyatı ölkəmizin və bütövlükdə, regionun müasir tarixində yeni dönəmin əsasını qoydu. Bu əməliyyat yalnız hərbi qələbə deyil, həm də Azərbaycan xalqının milli iradəsinin təntənəsi idi. Ermənistanın işğalçılıq siyasəti iflasa uğradı, 2020-ci il noyabrın 8-də Şuşanın azad edilməsindən sonra isə qarşı tərəf faktiki olaraq kapitulyasiya aktını imzalamağa məcbur oldu.

2020-ci il noyabr ayının 10-da Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidenti tərəfindən üçtərəfli Bəyanat imzalanmış, bu sənəd Ermənistanın kapitulyasiya aktı olmaqla yanaşı, Ermənistan-Azərbaycan münaqişəsinə də faktiki olaraq son qoymuşdur. Prezident İlham Əliyev bu xüsusda bəyan etmişdir: ***"Dağlıq Qarabağ münaqişəsi həll olunub, Azərbaycan bu münaqişəni təkbaşına həll edib, həm döyüş meydanında, həm də ondan sonra masa arxasında. Döyüş meydanında qazanılmış Qələbə düşməni məcbur etdi ki, ağ bayraq qaldırsın və təslim olsun, kapitulyasiya aktına imza atsın. Noyabrın 10-da imzalanmış sənəd məhz Ermənistanın kapitulyasiya aktıdır".***

Bəyanatın şərtlərinə əsasən Ağdam, Kəlbəcər və Laçın rayonları əlavə itki verilmədən azad edildi. Bununla yanaşı, Zəngəzur dəhlizinin açılması ideyası regional əməkdaşlıq və kommunikasiya xəritəsinin dəyişməsi baxımından tarixi zərurətə çevrildi. 2023-cü il sentyabrın 19-da Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri dövlət suverenliyinin tam təmin olunması istiqamətində həlledici mərhələ oldu. Cəmi 23 saat davam edən əməliyyat nəticəsində qanunsuz silahlı birləşmələr tərksilah edildi, separatçı rejim özünü buraxdığını elan etdi və Azərbaycan bütün ərazisində konstitusiya quruluşunu bərpa etdi.

Bu əməliyyatla Azərbaycan Respublikasında separatçı fəaliyyət və "boz zona" anlayışına son qoyuldu, dövlətin suverenliyi tam şəkildə bərpa edildi.

Vətən müharibəsindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev regional sabitliyin təmin edilməsi və dayanıqlı sülhün bərqərar olunması məqsədilə Ermənistanla münasibətlərin normallaşdırılması təşəbbüsünü irəli sürdü. Prezidentin təklif etdiyi və qarşılıqlı şəkildə dövlətlərin ərazi bütövlüyü və suverenliyinin tanınmasını ehtiva edən beş əsas prinsip əsasında sülh müqaviləsinin hazırlanması təşəbbüsü münaqişədən sonrakı mərhələdə fundamental siyasi çərçivə kimi qəbul olundu.

## Beynəlxalq proseslərə istiqamət verən ölkə: Avropa üçün ən önəmli LİDER

Azərbaycan bu gün tarixinin ən qüdrətli dövrünü yaşayır. Dünya artıq Azərbaycanı regionun lideri, qlobal layihələrin təşəbbüskarı, islahatlar aparan, əməkdaşlığa və Avropanın enerji təhlükəsizliyinə əhəmiyyətli töhfələr verən etibarlı tərəfdaş kimi qəbul edir. Cənab İlham Əliyevin yürütdüyü müstəqil siyasətlə Azərbaycan xarici əlaqələrini, siyasi-iqtisadi, hərbi, humanitar və digər sahələrdə müttəfiqlərini, əməkdaşlıq etdiyi ölkə və beynəlxalq təşkilatları özü seçir. Təbii sərvətlərinin sahibi kimi enerji sahəsində əməkdaşlıq əlaqələrini dövlət maraqları və qarşılıqlı faydalılıq prinsipləri əsasında reallaşdırır. Digər tərəfdən, Azərbaycan bölgədə və beynəlxalq səviyyədə əməkdaşlığa, təhlükəsizliyə mühüm töhfələr verir. Məhz bütün bunlara görə dünya siyasətinin aparıcı qurumları, həmçinin mötəbər beynəlxalq təşkilatlar Azərbaycanın mütərəqqi xarici siyasətini regional təhlükəsizlik və qlobal inkişafa mühüm töhfə kimi qiymətləndirirlər və ölkəmizlə əməkdaşlığa böyük önəm verirlər.

Azərbaycanın mühüm geosiyasi uğurlarından biri dünya birliyində güclü mövqeyə malik olması, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir. Prezident cənab İlham Əliyevin həyata keçirdiyi siyasi kurs respublikamızı inkişaf yoluna çıxarmaqla yanaşı, regional və beynəlxalq miqyasda nüfuzunu daha da artırıb. Azərbaycan dünyanın sayılıb-seçilən, hörmət olunan, etimad göstərilən dövlətinə çevrilib.

Ölkə Prezidenti cənab İlham Əliyevin Avropa liderlərinin dəvəti ilə ən mötəbər tədbirlərə dəvət alması, yüksək tribunalardan çıxışı, ən yüksək səviyyədə qarşılanması ölkəmizin artan nüfuzunun bariz nümunəsidir. Nəticədə, Avropa ölkələri Azərbaycanla əməkdaşlığa yüksək önəm verir, Prezident İlham Əliyevi Avropa üçün ən önəmli LİDER hesab edirlər.

Beynəlxalq təşkilatlara rəhbərlik etməkdə zəngin təcrübə qazanan Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi müxtəlif vaxtlarda bu quruma iki dəfə sədrlik edib. Qoşulmama Hərəkatının sədri olduğu müddətdə həyata keçirilən tədbirlər qurumun üzv dövlətləri tərəfindən yüksək dəyərləndirilib. Mötəbər tədbirlərə uğurlu ev sahibliyi etmək Azərbaycanın beynəlxalq aləmdə olan reytinqini getdikcə artırıb. Bütün bunlar, təbii ki, cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət və diplomatik məharət nəticəsində mümkün olmuşdur. Bununla bərabər, Azərbaycanın iqlim dəyişiklikləri ilə mübarizə prosesinə ciddi töhfə verən ölkə kimi tanınması onun COP29-a ev sahibliyi etmək imkanını daha da gücləndirdi. Azərbaycanın bu sahədə uzun illərdir, həyata keçirdiyi ardıcıl siyasət və layihələr, enerji mənbələrinin inkişaf etdirilməsi, o cümlədən külək və günəş enerjisi stansiyalarının qurulması baxımından ölkəmiz böyük işlər reallaşdırdı.

COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərar ölkəmizə növbəti dəfə böyük etimad və inamın göstəricisi oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin COP29-un Liderlər Sammitinin açılış mərasimindəki çıxışında vurğuladığı kimi: ***"Ötən ilin dekabrında, təxminən, 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək şərəfi verildi. Biz bu qərarı ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi kimi görürük".***

Dünya birliyinin Azərbaycana göstərdiyi inam və etimad isə Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin nəticəsidir. COP29-da 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçı, onların sırasında 80 prezident, vitse-prezident və baş nazirlərin təmsil olunması Azərbaycanın növbəti qələbəsi, nailiyyətidir.

Bəli, COP iqlim dəyişikliyi ilə mübarizədə vacib olmağı ilə yanaşı, həm də dünyanın ən əhəmiyyətli tədbirlərindən biridir. Azərbaycanın qazandığı bütün bu uğurlar isə Prezident İlham Əliyevin şəxsi nüfuzu, yürütdüyü müdrik və uzaqgörən siyasət nəticəsindədir. Qazanılan uğurlar sayəsində bu gün Azərbaycan beynəlxalq proseslərə istiqamət verən, yeni və uğurlu təşəbbüslərlə çıxış edən, beynəlxalq aləmdə öz sözünü deyən ölkəyə çevrilib.



## Naxçıvan yeni bir strateji inkişaf dönəminə daxil olacaq

Hələ Vətən müharibəsindəki zəfərimizin ilk rəsmi təsdiqi – 10 noyabr bəyanatında Azərbaycan liderinin sülh gündəliyinə daxil etməyə müyəssər olduğu "Zəngəzur dəhlizi" layihəsi də bu missiyanın son dərəcə əhəmiyyətli parçasıdır.

Azərbaycan Prezidentinin dahiyanə gedişlərindən olan "Zəngəzur dəhlizi" təşəbbüsü ilə ilk vaxtlarda Laçın yoluna qarşı əks balansın yaradılması da nəzərdə tuturdu. Ermənistanda isə sadəlövhcəsinə düşünürdülər ki, Azərbaycan Qarabağda öz məqsədlərinə tam nail olandan sonra Zəngəzur dəhlizi ilə bağlı mövqeyindən geri çəkiləcək. Rəsmi İrəvanın, təxminən, 5 ilə qədər müddətdə məsələni yubatması, "Sülh kəsişməsi" adlı utopik layihələrlə baş qatmağa çalışması da bu təşəbbüsü tədricən gündəlikdən çıxarmaq məqsədi güdürdü. Amma Azərbaycan Lideri yenə geri addım atmadı, bu məsələni daim gündəmdə saxladı.

Nəhayət, ötən il ABŞ-də imzalanmış Birgə Bəyannamə ilə ən böyük məqsədlərimizdən birinə – Zəngəzur dəhlizinin açılmasına, Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına – Azərbaycandan Azərbaycana maneəsiz çıxışın təmin edilməsinə nail ola biləcək.

Elmi-filoloji prinsiplərə əsaslansaq, əslində, bütün adlar şərti səciyyə daşıyır. Belə məqamlarda isə xüsusilə əhəmiyyət verilən məqam addan çox məhz mahiyyətdir. Kommunikasiya xətti "Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu" (Trump Route for International Peace and Prosperity – TRIPP) adlandırılsa da, əslində, söhbətin mahiyyət etibarilə məhz Zəngəzur dəhlizindən – Azərbaycanın nail olmağa çalışdığı dəhlizdən getdiyi hər kəsə məlumdur.

Naxçıvan Muxtar Respublikasına maneəsiz çıxışın Ermənistanın suverenliyi çərçivəsində nəzərdə tutulması, dəhlizin idarəetməsinin ABŞ-də olması isə bir tərəfdən Azərbaycanın guya Zəngəzuru işğal edəcəyi iddiası ilə hay-küy salan ermənipərəstlərə, o cümlədən keçmiş Bayden administrasiyasına, "Human Rights Watch", "Freedom House", USAID kimi bədxah QHT-lərə, "Azadlıq" radiosuna, digər tərəfdən isə Zəngəzur dəhlizi ilə bağlı hansısa "qırmızı xətlərdən" danışanlara ən tutarlı cavabdır.

Beləliklə, cənab İlham Əliyev əsrlərdən miras qalmış daha bir problemi aradan qaldırdı: uzun illərdən bəri blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə maneəsiz keçidi tezliklə təmin ediləcək, Naxçıvan iqtisadi rayonu yeni bir strateji inkişaf dönəminə daxil olacaq, blokada vəziyyətinin yaratdığı bütün sosial-iqtisadi çətinliklər keçmişdə qalacaq.

1990-cı ilin 22 iyulunda Ulu Öndər Heydər Əliyevin Naxçıvana qayıtması ilə bu bölgə işğaldan, səfalətdən xilas oldu, ən əsası isə Naxçıvanın timsalında Azərbaycanın müstəqilliyinin və dövlət quruculuğunun ilk modelləri böyük müdrikliklə hazırlandı və uğurla tətbiq olundu. Azərbaycanın əsl müstəqillik və layiqli dövlət quruculuğu prosesi məhz Naxçıvandan başlandı. Bu proses, nəticə etibarilə, tarixin ən qüdrətli Azərbaycanı və Qarabağda, Şərqi Zəngəzurda Zəfər Bayrağımızın dalğalanması ilə təntənəsini yaşadı. Ulu Öndər Heydər Əliyevin və qüdrətli Lider İlham Əliyevin rəhbərlik etdikləri bu tarixi epoxalarda Naxçıvan məlum coğrafi vəziyyətinə görə daim strateji prioritetliyini qorudu.

## Xalqın güvən yeri

XXI əsrin tələblərinə uyğun təhsil sisteminin qurulması, yaradıcı və innovativ cəmiyyət mühitinin, vətəndaşların sağlam həyat tərzinin təşviq olunması ilə Azərbaycan rəqabətli insan kapitalı və müasir innovasiya məkanının yaradılması prioritetinə doğru irəliləyir. Qarabağda, Şərqi Zəngəzurda dayanıqlı məskunlaşma, doğma yurdlara dönən vətəndaşlarımızın iqtisadi fəaliyyətə reinteqrasiyası ilə işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış addım-addım təmin edilir. Bütün bunlar cənab İlham Əliyevin liderliyi ilə ərazi bütövlüyü, suverenliyi təmin olunmuş tarixin ən qüdrətli Azərbaycanın planetimizdəki yeni simasını, yeni mövqeyini müəyyənləşdirir və bu siması, mövqeyi ilə müstəqil Azərbaycan dövləti planetimizin mənzərəsində daha ucalarda görünür. İllər öncə Azərbaycan Respublikasının Prezidenti kimi ölkə vətəndaşları qarşısında and içərkən cənab İlham Əliyevin nitqində ümid dolu bu kəlmələr də səslənmişdir: ***"Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir".*** Bunlar artıq, sadəcə, ümid deyil, Azərbaycan boyda bir reallıqdır və hər keçən gün xoşbəxt gələcəyinə qovuşan, inkişaf edən, güclənən Vətənimizlə bu qürur dolu reallığın əhatə dairəsi də genişlənir.

**Arzu ABDULLAYEV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini, tarix üzrə fəlsəfə doktoru, dosent*

## Naxçıvanda “Marsol Group” partnyorları ilə görüş keçirilib



Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyində “Marsol Group” partnyorları ilə görüş keçirilib.

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə çıxış edən Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Kazım Hüseynəliyev bildirib ki, Naxçıvanda həyata keçirilən iqtisadi islahatlar, əlverişli biznes mühit və dövlət dəstəyi sahibkarlığın inkişafı üçün geniş imkanlar yaradır. Nazir vurğulayıb ki, 1 yanvar 2026-cı il tarixdən tətbiq olunan vergi, gömrük və sosial sığorta güzəştləri dövlət başçısının regiona göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Bildirilib ki, Azərbaycan Respublikası Prezidenti tərəfindən 9 iyun 2026-cı il tarixdə “Qeyri-neft-qaz mallarının ixracının stimullaşdırılması və daşıma xərclərinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında” Fərman imzalanıb. Bu il sentyabrın 1-dən qüvvəyə minəcək fərmanın əsas məqsədi ölkədə istehsal olunan malların xarici bazarlara, eləcə də Naxçıvan Muxtar Respublikası mənşəli məhsulların Azərbaycan Respublikasının digər ərazilərinə çıxış imkanlarını daha da yaxşılaşdırmaqdır. Nazir sahibkarları muxtar respublikanın mövcud iqtisadi potensialından və yaradılmış əlverişli şəraitdən səmərəli istifadə etməyə, investisiya layihələrini reallaşdırmağa və dövlət-özəl sektor əməkdaşlığının inkişafına töhfə verməyə çağırıb.

“Marsol Group”un təsisçisi Tural Mustafayev bildirib ki, sahibkarlar arasında güclü əlaqələrin qurulması, təcrübə mübadiləsinin təşviqi, birgə layihələrin həyata keçirilməsi, investisiya imkanlarının artırılması və investisiya qoyuluşunun artırılması muxtar respublikada iqtisadi fəallığın gücləndirilməsinə mühüm töhfə verəcək.

Görüşdə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin nümayəndələri tərəfindən “Naxçıvan Muxtar Respublikasının iqtisadi potensialı və dəstək mexanizmləri”, eləcə də “Naxçıvan Muxtar Respublikasında 1 yanvar 2026-cı il tarixdən tətbiq edilən vergi, gömrük və sosial sığorta güzəştləri” mövzularında təqdimatlar edilib.

Sonra şirkət nümayəndələri fəaliyyət istiqamətləri barədə məlumat verib, gələcək əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb və onları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, “Marsol Group” müxtəlif sahələrdə fəaliyyət göstərən sahibkarları və biznes tərəfdaşlarını özündə birləşdirən şirkətdir. Naxçıvanda keçirilən görüşdə də müxtəlif fəaliyyət istiqamətlərini təmsil edən sahibkarlar iştirak ediblər. Görüşün əsas məqsədi Naxçıvan Muxtar Respublikasında mövcud investisiya mühiti ilə yaxından tanış olmaq, investorlar üçün tətbiq olunan güzəştlər və yaradılan imkanlar barədə ətraflı məlumat əldə etmək olub.

## Ali Məclisin 2026-cı il növbədənkənar sessiyası dövründə fəaliyyəti haqqında məlumat




## Şəhid övladları üçün təşkil olunan yay düşərgəsi başa çatıb



Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi, “Naxçıvan Şəhid Ailələri” İctimai Birliyinin təşkilatçılığı və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin tərəfdaşlığı ilə həyata keçirilən “Şəhid övladlarının intellektual inkişaf proqramı” layihəsi çərçivəsində təşkil olunan ikigünlük yay düşərgəsi başa çatıb.

Naxçıvanda yaşayan şəhid övladları və şəhid xanımları düşərgəyə yola düşməzdən əvvəl Zəfər parkını ziyarət edib, daha sonra Ağbulaq İstirahət Mərkəzinə yollanıblar.

Düşərgə müddətində iştirakçılar üçün intellektual və maarifləndirici məşğələlər, komanda quruculuğu və tanışlıq tədbirləri, yaradıcı fəaliyyətlər, idman yarışları, əyləncə proqramları və açıq hava tədbirləri təşkil olunub. Layihənin əsas məqsədi şəhid övladlarının bilik və bacarıqlarının inkişafına dəstək olmaq, onların asudə vaxtını səmərəli təşkil etmək və sosial ünsiyyət bacarıqlarını gücləndirmək olub.

Bağlanış mərasimində “Naxçıvan Şəhid Ailələri” İctimai Birliyinin sədri Mayis Gülməmmədov layihənin əhəmiyyətindən, düşərgə müddətində görülən işlərdən və şəhid övladlarının hərtərəfli inkişafına göstərilən diqqətdən danışıb.

Daha sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları Gülşad Rüstəmova və Zeynəb Quliyeva, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədr müavini Xatirə İbrahimli, “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” QSC-nin İdarə Heyəti sədrinin müavini Vüsal Muradov və digər qonaqlar çıxış edərək belə layihələrin uşaqların intellektual və sosial inkişafına verdiyi töhfəni, şəhid ailələrinə göstərilən dövlət qayğısının əhəmiyyətini vurğulayıblar.

Tədbirin sonunda iştirakçılara fəxri fərmanlar təqdim olunub. Ardınca düşərgə iştirakçıları Batabat Astrofizika Rəsədxanasına səfər edərək rəsədxananın fəaliyyəti ilə tanış olub, astronomiya mövzusunda maarifləndirici proqramda iştirak ediblər.

İki gün davam edən yay düşərgəsi şəhid övladlarının yeni bilik və bacarıqlar qazanmasına, həmyaşıdları ilə ünsiyyət və komanda bacarıqlarının inkişaf etdirməsinə, asudə vaxtlarının səmərəli təşkilinə mühüm töhfə verməklə başa çatıb.



## Naxçıvanda GPON şəbəkəsinin qurulması istiqamətində işlər davam etdirilir



“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üzrə Dövlət Proqramı”na uyğun olaraq muxtar respublikada rəqəmsal infrastrukturun yenilənməsi və müasir tələblərə uyğun qurulması istiqamətində işlər davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Poçt və Telekommunikasiya Mərkəzi tərəfindən muxtar respublikanın şəhər və kəndlərində müasir GPON (Qiqabit Tutumlu Optik Şəbəkə) texnologiyası əsasında fiber-optik şəbəkə qurulur.

Hazırda Naxçıvan şəhərinin əksər prospekt, küçə və məhəllələrində, Şərur rayon mərkəzində, Maxta kəndində, eləcə də Axaməd, Kərimbəyli və Qarabürc kəndlərində, həmçinin Kəngərli, Culfa və Ordubad rayon mərkəzlərində bu istiqamətdə mühüm işlər həyata keçirilir.

Ordubad şəhərində isə Heydər Əliyev prospekti, Fətəli Axundov və Cəlil Məmmədquluzadə küçələrində yeraltı fiber-optik kabel xətlərinin çəkilişi intensiv şəkildə davam etdirilir. Optik kabel çəkilmiş yaşayış binalarında optik paylayıcı qutuların quraşdırılması, eləcə də drop kabellərin mənzillərə çəkilməsi işlərinə başlanılıb.

Yaxın vaxtlarda Ordubad şəhərində yüzlərlə abonentin GPON texnologiyası vasitəsilə keyfiyyətli və yüksəksürətli internet xidmətindən istifadəsi təmin ediləcək.

Həyata keçirilən layihənin əsas məqsədi muxtar respublikanın bütün yaşayış məntəqələrində müasir, dayanıqlı və əlçatan rəqəmsal infrastruktur formalaşdırmaq, əhalinin yüksəksürətli internetə çıxış imkanlarını genişləndirməkdir.

## Qardaş ölkədə Zəngəzur dəhlizinin strateji əhəmiyyətindən bəhs edən kollektiv monoqrafiya nəşr olunub

44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə beynəlxalq siyasi gündəmdə mühüm yer tutan Zəngəzur dəhlizi mövzusu siyasətçilərin, investorların, eləcə də bu istiqamətdə araşdırmalar aparan alim və jurnalistlərin diqqət mərkəzindədir.

Bu baxımdan, ötən həftə Türkiyənin nüfuzlu “Eğitim Yayınevi” nəşriyyatında işıq üzü görən “Zengezur koridoru’nun ulusal, bölgesel ve küresel etkileri (Cilt 1)” (“Zəngəzur dəhlizinin milli, regional və qlobal təsirləri”, I cild) adlı kollektiv monoqrafiya xaricdə bu mövzuya həsr olunmuş ilk irihəcmli elmi tədqiqat əsərlərindən biri kimi diqqəti cəlb edir.

Dosentlər Alpaslan Alpaslanoğlu və Polad Əliyevin elmi redaktorluğu ilə hazırlanan 236 səhifəlik kitabda 12 müəllifin 9 elmi araşdırması toplanıb. Nəşrin ön sözünün müəllifi Azərbaycan iqtisadiyyatı üzrə tədqiqatları ilə tanınan türkiyəli alim, professor Kərəm Karabuluddur.

Monoqrafiyada Zəngəzur dəhlizinin Azərbaycan və Türkiyə arasında iqtisadi, mədəni və geostrateji əlaqələrin inkişafına verəcəyi töhfələr, turizm, ticarət, enerji, logistika, təhlükəsizlik, maliyyə və investisiya sahələrinə mümkün təsirləri geniş şəkildə təhlil edilir. Xüsusilə Qars-İğdır-Naxçıvan dəmir yolunun perspektivləri, dəhlizin strateji əhəmiyyəti və Naxçıvanın bu prosesdə rolu ayrıca araşdırma mövzusu kimi təqdim olunur.

Kitabda Malatya Turqut Özal Universitetinin dosenti Sibel Bilkay, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin müəllimi Mehdi Bağırov, İğdır Universitetinin dosenti Polad Əliyev, professor Elnur Hasan Mikail, dosent Hakan Çoran, Naxçıvan Dövlət Universitetinin dosenti Əli Cabbarov, dosent Özlem Sökmen Gürçam, dosentlər Aslıhan İğdır Akaras və Emrah Konuralp, dosent Güven Korkut, dosent Selçuk Gürçam və dosent Alpaslan Alpaslanoğlunun Zəngəzur dəhlizinin nəqliyyat, geosiyasət, enerji təhlükəsizliyi, turizm, dövlət maliyyəsi, ətraf mühit və regional inteqrasiya aspektlərini əhatə edən elmi məqalələri yer alıb.

Mütəxəssislərin fikrincə, bu nəşr gələcək tədqiqatlar üçün mühüm elmi mənbələrdən biri olacaq. Monoqrafiyada Zəngəzur dəhlizinin tarixi əsasları, təbii və tarixi-mədəni potensialı, siyasi və iqtisadi əhəmiyyəti, logistika imkanları, eləcə də regional və qlobal sülhə verə biləcəyi töhfələr geniş şəkildə araşdırılıb.

Kitabın elektron (PDF) versiyası “Eğitim Yayınevi” nəşriyyatının rəsmi internet səhifəsində oxucular üçün əlçatandır.

**Əli CABBAROV**
***Naxçıvan Dövlət Universitetinin dosenti***



# Müasir suvarma metodları və yüksək məhsuldarlıq: Şərurda kartofçuluq yeni mərhələdə



“Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı”nda kənd təsərrüfatının dayanıqlı inkişafını təmin edən əsas istiqamətlərdən biri suvarma sistemlərinin təkmilləşdirilməsi, su ehtiyatlarından və müasir texnologiyalardan səmərəli istifadədir. Proqramın prioritet hədəflərindən biri müasir suvarma sistemlərinin tətbiq olunduğu ərazilərin genişləndirilməsidir. Belə ki, hazırda 130 min hektar olan müasir suvarma sistemləri ilə təmin edilmiş sahələrin 2030-cu ilədək 300 min hektara çatdırılması nəzərdə tutulur. Bu, itkilərinin minimuma endirilməsi, su resurslarından daha səmərəli istifadə və kənd təsərrüfatı məhsullarının məhsuldarlığının artırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Dövlət Proqramında müəyyənləşdirilən vəzifələrə uyğun olaraq Naxçıvan Muxtar Respublikasında da bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Su ehtiyatlarının səmərəli idarə olunması, suvarma infrastrukturunun yenilənməsi, qapalı suvarma şəbəkələrinin yaradılması, hidrotexniki qurğuların müasirləşdirilməsi və müasir suvarma texnologiyalarının tətbiqi aqrar siyasətin əsas prioritetləri sırasındadır.

Muxtar respublikanın aparıcı kənd təsərrüfatı rayonlarından olan Şərur bu sahədə qabaqcıl mövqeyi ilə seçilir. Xüsusilə kartofçuluq təsərrüfatlarında müasir suvarma üsullarının tətbiqi ildən-ilə genişlənir. Bu texnologiyalar su sərfiyyatını əhəmiyyətli dərəcədə azaltmaqla yanaşı, bitkilərin vegetasiya dövründə optimal su təminatını təmin edir, məhsuldarlığın və istehsalın səmərəliliyinin yüksəlməsinə əlverişli şərait yaradır.

Bu il muxtar respublikada həyətyanı təsərrüfatlar istisna olmaqla, 581,6 hektar sahədə kartof əkilib. Əkin sahələrinin 540 hektarı Şərur rayonunun payına düşür ki, bu da rayonun kartofçuluq üzrə əsas istehsal mərkəzlərindən biri olduğunu bir daha təsdiqləyir.

Şərur Regional Dövlət Aqrar İnkişaf Mərkəzinin əməkdaşı Abbas Məmmədov bildirib ki, əkinlərdə,




əsasən, yüksək məhsuldarlığı ilə seçilən sertifikatlaşdırılmış toxum sortlarından istifadə olunub. Vegetasiya dövründə aqrotexniki tədbirlərin vaxtında həyata keçirilməsi, eləcə də müasir suvarma sistemlərinin tətbiqi məhsuldarlığın əhəmiyyətli dərəcədə artmasına imkan yaradıb.

Abbas Məmmədovun sözlərinə görə, rayonda kartof yığımı sürətlə davam edir. Fermerlər məhsulun vaxtında və itkisiz toplanması üçün sahələrdə intensiv işləyirlər. Müasir suvarma sistemlərinin tətbiq olunduğu əkin sahələrində hər hektardan 600-700 sentnerədək məhsul əldə edilir ki, bu da ənənəvi üsulla suvarılan sahələrlə müqayisədə xeyli yüksək göstəricidir.

Hazırda rayon üzrə kartof əkilən sahələrin, təxminən, 80 faizində, yəni 435 hektarda müasir suvarma sistemləri tətbiq olunur. Su ehtiyatlarından səmərəli istifadəni, məhsuldarlığın artırılmasını və kənd təsərrüfatının dayanıqlı inkişafını təmin edən bu yanaşma 2026-2030-cu illər üçün nəzərdə tutulan Dövlət Proqramının əsas istiqamətlərindən biridir. Gözlənilir ki, növbəti illərdə müasir suvarma texnologiyalarından istifadə edən fermerlərin sayı daha da artacaq və bu, məhsuldarlığın yüksəlməsinə əlavə töhfə verəcək. Hazırda kartof sahələrinin, təxminən, 30 faizində yığım başa çatdırılıb, digər sahələrdə isə məhsul yığımı mərhələli şəkildə davam etdirilir.

Muğancıq-Müslüm kənd sakini, fermer Hüseyn Cəfərov bildirib ki, hazırda yığımı başa çatdırılan sahələrdən əldə olunan məhsul anbarlara daşınır. “Bu il, təxminən, 15-16 hektar sahədə kartof əkmişdik. Əkin sahələrində müasir suvarma sistemindən istifadə edirik. Bu sistem həm məhsuldarlığı artırır, həm də bitkilərin xəstəlik və zərərvericilərdən, o cümlədən tel qurdunun vurduğu zərərin qarşısının alınmasına kömək edir. Yığdığımız məhsulu qış aylarında bazarın tələbatını ödəmək üçün anbarlarda saxlayırıq. Məhsulumuzu həm yerli bazara, həm də Bakıya və ölkənin digər bölgələrinə göndəririk”, – deyə fermer bildirib.

Fermer qeyd edib ki, rayonun münbit torpaqları eyni sahədə il




ərzində təkrar əkin aparmağa əlverişli şərait yaradır.

“Hazırda 3 hektar sahədə təkrar əkin başa çatdırılıb, yaxın günlərdə isə digər sahələrdə də əkin işlərinə başlanılacaq. Bu il su təminatı yüksək səviyyədədir. Araz çayı üzərində yerləşən nasos stansiyalarının yenidən işlək vəziyyətə gətirilməsi suvarma imkanlarının yaxşılaşmasına mühüm töhfə verib”, – deyə o bildirib.

Hüseyn Cəfərov yaradılan şəraitə görə bütün təsərrüfatçılar adından dövlət başçısına minnətdarlığını ifadə edib. Fermer əlavə edib ki, hazırda 10 hektar sahədə kartof yığımı başa çatdırılıb və hər hektardan orta hesabla 60-65 ton məhsul əldə olunur. “Qalan 7-8 hektar sahədə də yığım işlərini 4-5 gün ərzində yekunlaşdırmağı planlaşdırırıq. Keçən il 12 hektar sahədə kartof əkmişdik, bu il isə əkin sahəsini 18 hektara çatdırmışıq. Məqsədimiz növbəti illərdə də əkin sahələrini daha da genişləndirməkdir”, – deyə təsərrüfatçı vurğulayıb.

Şərurun kartof sahələrində müasir suvarma sistemlərinin tətbiqi bir daha göstərir ki, kənd təsərrüfatında yüksək məhsuldarlığın əsas şərtlərindən biri su ehtiyatlarından səmərəli istifadədir. Əldə olunan nəticələr suvarma sahəsində həyata keçirilən tədbirlərin Naxçıvanda kənd təsərrüfatının rəqabət qabiliyyətinin yüksəldilməsinə, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə və fermerlərin gəlirlərinin artmasına mühüm töhfə verdiyini təsdiqləyir.

Bütün bunlar deməyə əsas verir ki, “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı” çərçivəsində nəzərdə tutulan tədbirlərin ardıcıl icrası, suvarma infrastrukturunun daha da müasirləşdirilməsi və fermerlərin innovativ texnologiyalara üstünlük verməsi qarşıdakı illərdə məhsul istehsalının həcmini və keyfiyyətini artıracaq, aqrar sektorun dayanıqlı inkişafını sürətləndirəcək, regionun kənd təsərrüfatı potensialının daha səmərəli reallaşdırılmasına geniş imkan yaradacaq.

**Nail ƏSGƏROV**



# Gözoxşayan mənzərə, həm də zəhmətin bəhrəsi: günəbaxan tarlası

Günəş dağların arxasına çəkilir, torpaq isə sanki birgünlük zəhmətdən sonra dincini almaq üçün hazırlaşır. Yolumuz Babək rayonunun Cəhri qəsəbəsindəki günəbaxan tarlasına düşür. Gün batımının qızılı şəfəqləri günəbaxanların sarı ləçəklərinə toxunduqca tarla daha da füsunkar görünür. Günəşə doğru boylanan günəbaxanlar sanki onunla son dəfə görüşürmüş kimi bir istiqamətə çevrilib. Elə bu səbəbdən çəkilişimizi gün batımı saatına təsadüf etdirmişdik. Çünki günün bu anında günəbaxan tarlası təkcə göz oxşamır, həm də torpağın bərəkətini, zəhmətin dəyərini və təbiətin möcüzəsini bütün gözəlliyi ilə nümayiş etdirirdi.

Son illərdə ölkəmizdə yağlı bitkilərin istehsalının artırılması istiqamətində həyata keçirilən tədbirlər də bu sahəyə marağı artırıb. Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı”nda yağlı bitkilərin istehsalının genişləndirilməsi prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Cəhridə salınan bu günəbaxan sahəsi də həmin hədəflərin yerlərdə uğurla həyata keçirildiyini göstərən nümunələrdəndir. Bu ecazkar mənzərənin fonunda günəbaxan yetişdirən təsərrüfatçı ilə həmsöhbət oluruq. Tarlada bizi qarşılayan Murtuz Qasımov bu sahədə birinci ilini yaşasa da, əkinə böyük həvəslə yanaşdığı ilk baxışdan hiss olunur.

“Bir ildir, günəbaxan əkini ilə məşğulam”, – deyə söhbətə başlayan Murtuz Qasımov bildirdi ki, Cəhri qəsəbəsinin torpaq və iqlim şəraiti bu bitki üçün əlverişlidir. O, ilk olaraq bir hektar sahədə günəbaxan əkib. Təsərrüfatçının sözlərinə görə, bu il yağıntıların bol olması və sahəyə vaxtında qulluq göstərilməsi məhsuldarlıqla bağlı gözləntilərini artırıb.

Müsahibim deyir ki, günəbaxan yetişdirmək ilk baxışda asan görünsə də, bol məhsul əldə etmək üçün bütün mərhələlərə məsuliyyətlə yanaşmaq vacibdir. Əkinə başlamazdan əvvəl torpaq üzvi gübrələrlə zənginləşdirilir, şumlanır və səpinə hazırlanır. Aprel-may aylarında torpağa səpilən toxumlar yay boyu göstərilən aqrotexniki qulluq nəticəsində inkişaf edir. Avqustun sonu, sentyabrın əvvəlində isə günəbaxan tam yetişir, tumlar dolğunlaşır və məhsul yığımına başlanılır.

İlk dəfə bu sahədə fəaliyyət göstərməsinə baxmayaraq, Murtuz Qasımovun həvəsi azalmayıb. Əksinə, qazandığı ilk təcrübə ona növbəti illər üçün daha böyük inam verib. Məhsuldarlığın gözləntiləri doğruldacağı təqdirdə gələcək mövsümlərdə əkin sahəsini genişləndirməyi planlaşdırır.

“Günəbaxan həm iqtisadi baxımdan gəlirli məhsuldur, həm də bitki yağı istehsalında mühüm yer tutur. Bu sahənin perspektivinə inanıram.



İmkan yaranarsa, əkin sahəsini artıracağam”, – deyə təsərrüfatçı bildirir.

Müsahibim onu da vurğulayır ki, günəbaxan tumu təkcə sevilən çərəz deyil. Tərkibindəki vitamin və minerallar onu qidalı məhsula çevirir. Eyni zamanda bitki yağı sənayesinin əsas xammallarından biri kimi də mühüm əhəmiyyət daşıyır. Məhz buna görə günəbaxan həm kənd təsərrüfatında, həm də gündəlik qidalanmada özünəməxsus yer tutur.

Söhbət əsnasında məlum olur ki, təsərrüfatçı gələcəkdə əkin sahəsini genişləndirməklə yanaşı, məhsuldarlığı daha da artırmaq üçün müasir aqrotexniki üsullardan istifadə etməyi də planlaşdırır. Bu isə kənd təsərrüfatında yeni yanaşmaların tətbiqinin və fermerlərin inkişaf istəyinin göstəricisidir.

Təsərrüfatçı ilə söhbətimizi başa vurub tarladan ayrılırıq. Arxaya boylananda Günəşin son şəfəqləri altında bir istiqamətə üz tutan günəbaxanlar sanki zəhmətin səssiz şahidlərinə çevrilmişdi. Həmin an bir daha anlayırsan ki, hər yetişən məhsulun arxasında aylarla davam edən zəhmət, səbir və torpağa sevgi dayanır. Bu tarladan isə təkcə gözoxşayan mənzərə ilə deyil, zəhmətin əsl dəyərini bir daha hiss edərək ayrılırıq.



**Zəhra VƏLİYEVA**

# Yaylaqlarda həyat canlanıb:

## Qanlıgöldə zəhmət və bərəkət mövsümü başlayıb – reportaj

Yayın gəlişi ilə Naxçıvanın uca dağlarında həyat yenidən canlanır. Minilliklərdən süzülüb gələn yaylaq ənənəsi bu gün də öz ritmini qoruyur. Səhərin ilk işıqları ilə oba ocaqlarından tüstü qalxır, sürülər yaşıl örüşlərə üz tutur, çobanların səsi dağlara yayılır.

Dəniz səviyyəsindən, təxminən, 2400 metr yüksəklikdə yerləşən Şahbuz rayonunun Qanlıgöl yaylağı bu günlərdə zəhmətin, bolluğun və bərəkətin hökm sürdüyü əsas məkanlardan biridir. Burada yay, sadəcə, bir fəsil deyil, heyvandarlar üçün ilin ən məsuliyyətli və məhsuldar dövrüdür. Təmiz dağ otlaqları, əlverişli iqlim və zəngin təbii şərait Qanlıgölü yay mövsümündə Şərur rayonundan olan heyvandarların ən çox üz tutduğu yaylaqlardan birinə çevirib. Bu ərazilərdə salınan obalarda aylarla davam edən zəhmətin bəhrəsi olaraq yüksək məhsuldarlıq əldə edilir, ənənəvi yaylaq həyatı isə bütün canlılığı ilə yaşadılır.

Muxtar respublikada hazırda 60 mindən çox iribuynuzlu, 400 mindən çox isə xırdabuynuzlu heyvan saxlanılır. Hava şəraitinin əlverişli keçməsi ilə iyun ayının ortalarından başlayaraq heyvanlar mərhələli şəkildə yaylaqlara çıxarılıb. Təbii otlaqların zənginliyi və sərin hava həm heyvanların sağlam inkişafına, həm də məhsuldarlığın artmasına əlverişli şərait yaradır.

Fermerlər bildirirlər ki, məhz bu təbii şərait süd məhsullarının keyfiyyətinə də birbaşa təsir göstərir. Yaylaq mövsümündə əldə olunan süd, pendir, yağ və digər məhsullar ailələrin illik tələbatının ödənilməsində mühüm rol oynayır.

Qanlıgöl yaylağında artıq 30 ilə yaxındır, təsərrüfatla məşğul olan fermer Süleyman Heydərov deyir ki, hər il iyunun ortalarında ailəsi ilə birlikdə yaylağa köçür. Üç aya yaxın burada yaşayan fermer üçün yaylaq həm yaşayış, həm də əsas istehsal məkanıdır. O qeyd edir ki, ailəsinin illik yağ və pendir ehtiyatı məhz bu dövrdə hazırlanır: "Toyuq-cücəmiz də, iribuynuzlu heyvanlarımız da buradadır. Burada hazırladığımız yağ, pendir və digər süd məhsulları ilə ailəmizin ilboyu olan tələbatını ödəyirik. Yeddi nəvəm var, onların hamısı hər il bizimlə birlikdə yaylağa gəlir. Təxminən, üç ay burada qalırıq, avqustun sonlarında isə geri qayıdırıq. Yaylaqda yaşamaq bizim üçün həm əlverişli, həm də bərəkətlidir".





Yaylaq mövsümündə baytarlıq xidmətləri də gücləndirilir. Mütəxəssislər tərəfindən heyvanlar arasında mütəmadi profilaktik müayinələr aparılır, yoluxucu xəstəliklərə qarşı peyvəndləmə tədbirləri həyata keçirilir.

Baytar həkimi Cəlal Kamalovun sözlərinə görə, hazırda Mahmudkənd obasında dabaq xəstəliyinə qarşı profilaktik peyvəndləmə davam etdirilir. Dövlət tərəfindən təmin olunan baytarlıq preparatlarının tətbiqi nəticəsində Şərur rayonu üzrə infeksion xəstəlik qeydə alınmayıb. Təkcə Mahmudkənd obasında yaylaq mövsümündə 8 min 479 baş xırdabuynuzlu heyvan saxlanılır və onların sağlamlığı daim nəzarətdə saxlanılır.

Mütəxəssislər bildirirlər ki, yaylaqlardan səmərəli istifadə heyvandarlığın inkişafında mühüm əhəmiyyət daşıyır. Təbii otlaq sahələri əlavə yem xərclərini azaldır, heyvanların sağlamlığını qoruyur və məhsuldarlığı artırır. Bu isə fermerlərin iqtisadi gəlirlərinin yüksəlməsinə, eyni zamanda əhalinin keyfiyyətli ət və süd məhsulları ilə təmin olunmasına mühüm töhfə verir.



Qanlıgöl yaylağında keçən hər gün zəhmətin, səbrin və təbiətlə harmoniyanın canlı təzahürüdür. Burada hazırlanan pendir, yağ, yetişdirilən heyvanlar aylarla çəkilən zəhmətin bəhrəsidir. Yaylaq mövsümü təkcə ailələrin dolanışığını təmin etmir, həm də Naxçıvanda əsrlərboyu formalaşmış heyvandarlıq ənənəsinin yaşadılmasına xidmət edir. Dağlarda qazanılan bu zəhmət payız və qış aylarının bərəkətinə çevrilərək kənd təsərrüfatının davamlı inkişafına, ərzaq təminatının möhkəmləndirilməsinə və kənd insanının rifahının yüksəlməsinə mühüm töhfə verir. Qanlıgöl yaylağı hər yay olduğu kimi, bu il də zəhmətin bərəkətə çevrildiyi, ənənələrin yaşadıldığı və təbiətlə insanın ahəngdar vəhdət təşkil etdiyi məkan kimi öz əhəmiyyətini qoruyur.

**Nail ƏSGƏROV**

## Nehrəmin yaşıl tağları arasında gizlənən zolaqlı xəzinə

### Həqiqi bərəkət təbiətə verilən əməyin, səbrin mükafatıdır



Geniş, dalğalı tağların arasında gizlənən zolaqlı nəhəngləri görmək üçün torpağa bir az da yaxınlaşırıq. Yayın ən şirin, ən zərif sirrinin gizləndiyi Babək rayonu ərazisini əhatə edən Nehrəmin məşhur qarpız bostanlarındayıq. Günəş hələ üfüqdə tam görünməsə də, qəsəbənin şərqindəki geniş bostanlarda artıq həyat başlayıb. Torpağın bağrında hər yeni gün bir möcüzə ilə başlayır. Zolaqlı, iri qarpızlar geniş, cod yarpaqların altında gecə şehinin incilərini üzərlərində daşıyaraq sanki insana gülümsəyirlər. Geniş yarpaqların kölgəsində uyuyan hər bir qarpız sanki torpağın bərəkətini, Günəşin hərarətini və suyun həyatverici gücünü özünə çəkən qapalı bir xəzinədir. Göz işlədikcə uzanan yaşıl tağların arasında cərgələnən bu zolaqlı xəzinə Naxçıvanın isti yay Günəşinin bəhrəsidir.

Bostana gec gəlsək də, burada həyat səhərin erkən saatlarından başlayır. Günəş yüksəldikcə torpağın isti qoxusu və bostandan gələn yaşıl ətir insanı dərhal özünə çəkir. Əllərinin qabarı, üzlərinin dərin qırışları ilə torpağın xəritəsini xatırladan sakinlərə yaxınlaşırıq. "Bostan insana bənzəyər" Tofiq dayı şırımların arasından bizə tərəf addımlayaraq deyir: "Ona necə baxsan, sənə elə cavab verəcək. Səhərin sərinliyində torpaqla danışmasan, günortanın bürküsündə sənə meyvə verməzlər (əli ilə qarpızları göstərir). Bu torpaq elə-belə şey deyil. Ona sevgini verməsən, sənə o şirinliyi qaytarmaz. Qarpız tənbəlliyi sevməz, gündüz bürküsünə, gecə sərininə dözməli, hər gün onunla nəfəs almalısan". Tofiq dayının yanında günbəgün böyüyən, cod yarpaqların altında gizlənən zolaqlı qarpızlar sanki gecədən bəri nə qədər böyüdüklərini "nümayiş etdirirlər" bizə.

Bostan kəndli üçün təkcə ruzi mənbəyi deyil, həm də qürur yeridir. İyulun



ortalarından başlayan məhsul yığımı zəhmətin ən şirin mükafatıdır. Sahə boyunca irəlilədikcə zolaqlı meyvələri ehtiyatla seçən, onları yığan təcrübəli bostançı Elsevər Cəfərovla söhbətləşirik. Deyir ki, uzun illərdir, əkin-biçinlə məşğuldur, amma builki qədər Nehrəmdə qarpız olmayıb: "Nehrəm qarpızı hər zaman adı və dadı ilə fərqlənib. Onu fərqləndirən əsas cəhət isə torpağın həm münbitliyi, həm də mineralların bol olmağıdır. Bu il, ümumiyyətlə, su bol olduğuna görə, qarpız da bol-dur". Söhbətə müdaxilə edən Tofiq dayı əlavə edir ki, Nehrəm qarpızının digər bölgələrdə yetişən qarpızlardan fərqlənməsinin əsas səbəbi buranın qumsal və şorlaşmamış torpaqları, bol Günəşli iqlimi və düzgün becərmə üsullarıdır: "Bu şərait qarpızın daha şirin, keyfiyyətli və xəstəliklərə davamlı olmasına kömək edir. Fermerlər, əsasən, üzvi gübrələrdən istifadə edir, kimyəvi gübrələri isə yalnız bitkinin ilk inkişaf mərhələsində tətbiq edirlər. Bu da məhsulun, qarpızın təbii dadını qoruyur. Son illərdə suvarma imkanlarının yaxşılaşması sayəsində Nehrəmdə bostan məhsullarının istehsalı daha da artıb və bölgənin qarpızı yüksək keyfiyyətinə görə alıcılar tərəfindən üstün tutulur".

Tağların arasında gəzişərək qarpızlara toxunan, əlindəki köhnə, amma iti bıçağı kəmərinə bərkidən Elsevər Cəfərov bu torpaqla nəfəs alır. Deyir ki, qarpızı, sadəcə, dərib bazara çıxarmaqla iş bitmir, gərək onun vaxtını dəqiq biləsən. "Təbiətin öz dili var" gülümsəyərək deyir: "Qarpız hazır olanda susmur. Barmağınla toxunanda daxilindən gələn o tox, gur səs sanki torpağın "Məni dər" çağırışıdır. Məsələn, baxın bu



saplağa (əli ilə göstərir), saplağın yanındakı balaca "bığcıq" quruyubsa və o səs gəlirsə, deməli, qarpız süfrəyə hazırdır".

Təsərrüfatçılar deyir ki, Nehrəmdə qarpızın bir neçə növü yetişdirilir. Ən çox yayılanları verim, hollar və poltar növləridir və hər birinin dadı fərqlidir. Hazırda Nehrəm ərazisində, təxminən, 120 hektar sahədə bostan məhsulları becərilir və yüksək keyfiyyətli məhsul əldə olunur. Bunun əsas səbəblərindən biri son illərdə su təminatının xeyli yaxşılaşmasıdır. Bölgədəki göllərdə və suvarma mənbələrində kifayət qədər su ehtiyatı mövcuddur. Araz nasosları, Vayxır və Əlincə ərazilərində yerləşən su anbarları fermerlərin suvarma tələbatını ödəyir. Buna görə də əkinçilər su çatışmazlığından əziyyət çəkmirlər. Erkən məhsul əldə etmək üçün bəzi əkin sahələrində polietilen örtükdən, bəzi sahələrdə isə şırım üsulu və damcı suvarma sistemi ilə əkin aparılır. Damcı suvarılan sahə daha gec əkildiyi üçün məhsulu da fəraş məhsuldan sonra yetişəcək. Beləliklə, Nehrəmdə bostan məhsulları mövsüm boyu, hətta dekabr ayına qədər bazara çıxarılır. Hətta Naxçıvan-Ordubad magistralında, yolun kənarında yerli sakinlər tərəfindən becərilən qarpızların satışını bu aylaradək görmək mümkündür. Bu da əhalinin il ərzində təzə bostan və tərəvəz məhsulları ilə təmin olunmasına imkan yaradır.

Bostan həyatı kənardan nə qədər asan görünsə də, arxasında böyük zəhmət dayanır. Arxlardan gələn suyun şırımlara düzgün paylanması, tağların çürüməməsi üçün suvarmanın tənzimlənməsi, alaq otlarına qarşı mübarizə – bütün bunlar məhsulun keyfiyyətini müəyyənləşdirən amillərdəndir. Süfrələrimizə gələn hər qarpızın arxasında torpağa bağlı insan əməyi dayanır.

Saatlar irəlilədikcə Günəş göyün tən ortasına qalxır. Bostanda istidən hava sanki titrəyir, amma burada həyat dayanmır. Bostanın kənarındakı balaca dəmir çarpayıda oturub yenicə dərilmiş qarpızı yeyirik. Gənc təsərrüfatçı Elsevər qabarlı əlləri ilə qarpız dilimini tutur, gözlərini üfüqə zilləyir. Uzağa zillənmiş gözləri sanki bir həqiqəti çatdırmağa çalışır: həqiqi bərəkət təbiətə verilən əməyin, səbrin mükafatıdır. Bostanda becərilən hər bir qarpız torpağın saxladığı sirr, təsərrüfatçının isə tökdüyü alın təridir. Özlərinin də dediyi kimi: "Yaxşı qarpız sahibini yarı yolda qoymaz!"

**Ceyhun MƏMMƏDOV**

# Şərur yallıları: milli irsimizin yaşanan salnaməsi



Şərur yallıları öz qədimliyi, rəngarəngliyi və ifa xüsusiyyətləri ilə seçilərək Azərbaycanın qeyri-maddi mədəni irsinin ən qiymətli nümunələri sırasında yer alır. Bu sənətin qorunması və yaşadılmasında 1929-cu ildən fəaliyyət göstərən "Şərur" Xalq Yallı Ansamblının xüsusi rolu var. Kollektiv ötən onilliklər ərzində qədim yallıların unudulmaması, səhnə mədəniyyətinin inkişafı və milli rəqs ənənələrinin gələcək nəsillərə çatdırılması istiqamətində ardıcıl fəaliyyət göstərib. Ansamblın formalaşması və inkişafında Azərbaycan musiqisinin banisi Üzeyir Hacıbəylinin tövsiyələri də mühüm rol oynayıb. Kollektiv uzun illər ölkəmizin müxtəlif bölgələrində və xarici ölkələrdə keçirilən tədbirlərdə çıxış edərək Şərur yallıları və Azərbaycan mədəniyyətini beynəlxalq auditoriyaya uğurla tanıdıb.

Bu ənənə bu gün də uğurla davam etdirilir. "Şərur" Xalq Yallı Ansamblı növbəti dəfə Türkiyə Respublikasının Artvin vilayətinin Şavşat rayonunda təşkil olunan 33-cü Beynəlxalq Şavşat Sahara Mədəniyyət və İncəsənət Festivalında iştirak edərək qədim yallılarımızı nümayiş etdirib. Ansamblın çıxışı festival iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb və milli rəqs sənətimizin zənginliyi bir daha beynəlxalq səviyyədə təqdim olunub.

Biz də bu məqsədlə "Şərur" Xalq Yallı Ansamblının bədii rəhbəri, Azərbaycan Respublikasının Əməkdar artisti Əfsər Novruzovla səfərin təəssüratları, əldə olunan uğurlar və qarşıdakı planlar barədə həmsöhbət olduq. Əfsər Novruzov bildirdi ki, festival çərçivəsində qədim yallılarımızı vasitəsilə Naxçıvanı və Azərbaycanı qardaş ölkədə layiqincə təmsil etmək onlar üçün böyük qürur olub. Onun sözlərinə görə, ansamblın təqdim etdiyi proqramda UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı Olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmiş yallılar da yer alıb. "Xəlfi", "Köçəri", "Tənzərə" və digər qədim yallılar tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Festivalın ilk günündə təşkil olunan ənənəvi yürüş proqramı ən yaddaqalan məqamlardan biri olub. Milli geyimlərdə çıxış edən ansambl üzvləri yürüş zamanı Azərbaycan mədəniyyətini nümayiş etdiriblər. Ardınca bələdiyyə meydanında keçirilən rəsmi açılış mərasimində müxtəlif ölkələrdən gələn kollektivlərin çıxışları təqdim olunub. Təxminən, 15 nəfərlik heyətlə festivalda iştirak edən "Şərur" Xalq Yallı Ansamblının çıxışı böyük maraqla qarşılanıb və qədim yallılarımız unudulmaz anlar yaşadıb.

Festival çərçivəsində keçirilən qarşılıqlı hədiyyə təqdimetmə mərasimində də milli dəyərlərimiz ön plana çıxıb. Ansambl tərəfindən Naxçıvanın tarixi simvollarından olan Möminə xatun türbəsinin təsviri əks olunan tablo hədiyyə edilib. Daha sonra kollektiv Yayla Festivalında da çıxış edərək qədim yallılarımızı nümayiş etdiriblər. Təqdim olunan rəqslər iştirakçılara Azərbaycan xalqının zəngin folklor irsini daha yaxından tanımaq imkanı yaradıb.

Əfsər Novruzovun sözlərinə görə, Türkiyənin müxtəlif bölgələrində dəfələrlə çıxış etsələr də, Şavşat festivalı onlar üçün xüsusi əhəmiyyət daşıyıb. Çünki bu festival yerli tamaşaçıların Şərur yallıları ilə ilk əyani tanışlığı olub.



Ansamblın sənət yolu uzun illərdir, ölkə sərhədlərini aşır. Polşa, Macarıstan, Misir və Türkiyənin müxtəlif bölgələrində keçirilən tədbirlərdə dəfələrlə çıxış edən kollektiv milli rəqs sənətimizi uğurla təbliğ edib. Eyni zamanda Naxçıvanda keçirilən müxtəlif mədəni tədbirlərdə, o cümlədən Qərbi Azərbaycan festivallarında da fəal iştirak edib.

Yallı sənətinin yaşadılması və təbliği istiqamətində həyata keçirilən mühüm layihələrdən biri də "Zamanın səsi – Şərur yallıları" adlı sənədli filmdir. Filmdə qədim yallı ənənəsinin tarixi, bu irsin qorunması istiqamətində görülən işlər və sənətin daşıyıcılarının fəaliyyəti əks olunacaq. Müsahibim bildirir ki, təxminən, bir il əvvəl filmin rejissoru Orxan Cabbarovla bu mövzuda söhbətləri olub. Həmin görüş zamanı yallı sənətimizlə bağlı film çəkilməsi ideyası irəli sürülüb. Qısa müddət sonra layihə üzərində hazırlıq işlərinə başlanılıb, Azərbaycan Respublikası Kino Agentliyi tərəfindən də təşəbbüs yüksək qiymətləndirilib. Aprel ayından etibarən "Şərur" Xalq Yallı Ansamblının rəhbəri və üzvləri çəkiliş prosesinə cəlb olunub, daha sonra "Nurani" Ansamblının üzvləri də filmə dəvət edilərək çəkilişlərdə iştirak ediblər.

Əfsər Novruzovun sözlərinə görə, belə layihələrin həyata keçirilməsi yallı sənətinin daha geniş tanıdılması və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır. O ən böyük arzularından birinin Qarabağda, Cıdır düzündə Şərur yallısını ifa etmək olduğunu da vurğulayıb. Bu, kollektiv üçün həm mənəvi dəyər, həm də unudulmaz hadisə olardı.

Beynəlxalq festivallarda uğurlu çıxışlar, müxtəlif ölkələrdə keçirilən mədəni tədbirlər və yallı sənətinə həsr olunan yeni layihələr bir daha təsdiq edir ki, Şərur yallıları təkcə keçmişin yadigarı deyil, bu gün də yaşayan və inkişaf edən ən zəngin mədəni irs nümunəsidir.

✍ Zəhra VƏLİYEVA




# Səssiz lentlərin danışdığı ünvan – Naxçıvan Dövlət Film Fondu

Qapını asta itələyib içəri daxil oluram. Elə ilk addımdaca qəribə bir hiss məni öz ağuşuna alır. Havaya hopmuş köhnə kinolentlərin özünəməxsus qoxusu, divarlara çökən zamanın sükutu, rəflərdə düzülmüş sellüloid lentlər... Bu, adi arxiv qoxusu deyil. Elə bil, illər əvvəl çəkilmiş filmlərin nəfəsi bu divarlarda yaşayır. Bir neçə saniyə dayanıb ətrafa baxıram. Burada zaman tələsmir, sükut isə sanki öz dili ilə danışır.

2 avqust – Azərbaycan Kinosu Günü ərəfəsində yolumu Naxçıvan Dövlət Film Fonduna salmışam. Dəhlizlə irəlilədikcə divar boyu düzülmüş portretlər diqqətimi çəkir. Bir anlıq anlayıram ki, bu baxışlar məni, sadəcə, qarşılamır, həm də Azərbaycan kinosunun keçdiyi yolu danışır. Şərqin ilk peşəkar qadın kinorejissoru Qəmər Salamzadənin düşüncəli siması, yüzlərlə ekran əsərinə nəfəs verən görkəmli səs rejissoru Əziz Şeyxovun portreti, milli kinomuzun banilərindən olan rejissor və aktyor Rza Təhmasibin müdrik baxışları, kinooperator, rejissor və rəssam Əlisəttar Atakişiyevin sənət sevgisini əks etdirən çöhrəsi... Elə bil, bu divarlar Azərbaycan kinosunun salnaməsini qoruyur.

Məni fondun direktoru Mirakif Seyidov qarşılayır. Hələ söhbətimizin ilk dəqiqələrindən hiss olunur ki, bu məkandakı hər kinolent, hər foto, hər eksponat onun üçün doğma bir xatirəyə çevrilib. Dəhlizlə irəlilədikcə hər əşyanın, hər şəklin tarixini böyük sevgi ilə danışır. Mən isə onu dinlədikcə anlayıram ki, bəzən tarix kitab rəflərində deyil, məhz səssiz məkanlarda yaşayır.

Mirakif müəllim bildirir ki, Naxçıvan Dövlət Film Fondu 2000-ci ilin yanvar ayından fəaliyyət göstərir. Bu illər ərzində burada Azərbaycanın kino irsi böyük həssaslıqla qorunub. Hazırda fondda bədii, sənədli, elmi-kütləvi və animasiya filmləri olmaqla Azərbaycan və xarici kinostudiyaların istehsalı olan, ümumilikdə, 4680 adda film saxlanılır. Onların 3692-si kinolent şəklində qorunur və ümumilikdə, 18 min 203 lent mühafizə edilir. Rəqəmlər böyük görünür. Amma onların arxasında minlərlə insanın əməyi, yüzlərlə yaradıcı taleyi və onilliklərin yaddaşı dayanır.



Dəhlizlə irəliləyək fondun 77 yerlik kino zalına daxil oluram. Səhnə sakitdir, oturacaqlar boşdur. Amma elə bil, bir azdan işıqlar sönəcək, kinoproyektor işə düşəcək və illər öncə çəkilmiş filmlər yenidən öz tamaşaçısı ilə görüşəcək.

Sonra yolumuz Heydər Əliyev auditoriyasına düşür. Burada Ümummilli Lider Heydər Əliyevin Azərbaycan kinosuna göstərdiyi diqqəti əks etdirən fotoşəkillər, filmlər, kitablar və albomlar qorunur. Auditoriyanı gəzərkən hiss edirəm ki, bu guşə, sadəcə, ekspozisiya deyil. O, milli kinomuzun inkişaf yolunun yaşadan yaddaş məkanıdır.

Fondun ən maraqlı hissəsi isə 2004-cü ildə yaradılan Kino Muzeyidir. Qapını açıram və sanki başqa bir zamana düşürəm. Burada 123 adda, 213 eksponat qorunur. Uşaqlıqdan izlədiyim filmlərin qəhrəmanları sanki bu eksponatlar arasında yaşayır. İlk olaraq muzeyin ən qədim eksponatları – 1939-cu ildə çəkilmiş "Kəndlilər" filmindən qalan çarıqlar və papaq diqqətimi çəkir. Bu əşyalar artıq, sadəcə, geyim deyil, bütöv bir dövrün canlı izidir. Bir qədər irəlidə "Görüş" filmində Lalanın taxdığı araqçın vitrində sakitcə dayanıb. Yaxınlıqda isə "Bir qalanın sirri" filmindən qalan mücrü var. Onun qarşısında dayananda uşaqlıq illərində dəfələrlə izlədiyim səhnələr gözümün önündən keçir. Elə bil, Həkim baba indicə gəlib sirrini yenidən açacaq.

Mirakif müəllim bir vitrinin önündə dayanaraq gülümsəyir. "Ən çox sevdiyim eksponatlardan biri budur", – deyə qorunan hambal palanını göstərir.

Söhbət zamanı öyrənirəm ki, bu nadir eksponatdan Azərbaycanın ilk rəngli bədii filmi olan "O olmasın, bu olsun" ekran əsərində istifadə edilib. Filmdə istifadə olunan həmin palanın yeganə nümunəsi bu gün Naxçıvan Dövlət Film Fondunda qorunur.

Mirakif müəllimi dinlədikcə baxışlarımı həmin palandan ayıra bilmirəm.





Bir anlıq elə təsəvvür edirəm ki, o özü dillənir: "Vaxtilə insanların yükünü daşıyırdım. Bu gün isə bütöv bir xalqın kino tarixini daşıyıram..."

Muzeyi gəzdikcə qarşıma bir-birindən qiymətli eksponatlar çıxır. "Uzaq sahillərdə" filmindən alman zabitinin hərbi geyimi, "Nəsimi" filmindən papaq və toqqa, "Əzablı yollar" filmindən tac və şah papağı, "Babək" epopeyasından qalan qalxan və qılınclar, "Arşın mal alan" filmindən qədim patefon... Hər eksponatın qarşısında istər-istəməz dayanır, onun aid olduğu filmi xatırlayıram.

Söhbət əsnasında öyrənirəm ki, fondda xüsusi temperatur rejimi ilə qorunan beş mühafizə boksu var. Burada filmlərin orijinal lentləri saxlanılır. Mirakif müəllim həmin lentlərə baxaraq sakit səslə deyir: "Bunlar, sadəcə, lent deyil. Bunlar tarixdir. Xalqımızın mədəni sərvəti və dövlət varidatıdır".

Həmin lentlərə baxdıqca bir daha anlayıram ki, burada qorunan təkcə filmlər deyil. Hər lent bir dövrün nəfəsini, bir yaradıcı ömrün izini, bir xalqın mədəni yaddaşını özündə yaşadır. Onlar səssiz görünür, amma hər biri öz dili ilə danışır, keçmişi bu günə, bu günü isə gələcəyə qovuşdurur.

Fondun fəaliyyətinin yalnız arxivlə məhdudlaşmadığını da öyrənirəm. Burada illərdir, Azərbaycan filmlərinin rayon və kəndlərdə nümayişi təşkil edilir, məktəblilər üçün kino günləri, viktorinalar, kinonun təbliği məqsədilə müxtəlif müsabiqələr və maarifləndirici tədbirlər keçirilir. Məqsəd birdir – milli kinonu yaşatmaq və yeni nəslə sevdirmək.

Artıq ayrılmaq vaxtıdır. Dönüb son dəfə dəhlizə baxıram. Divarlarda asılmış portretlər, rəflərdə qorunan kinolentlər, vitrində sərgilənən eksponatlar... Hər biri Azərbaycan kinosunun zəngin tarixindən səssiz-səmirsiz danışır. Qapını bağlayıb binadan çıxıram. Həyat öz axarında davam edir. Amma bir fikir məni tərk etmir: film bitə bilər, pərdə bağlana bilər, işıqlar yana bilər. Lakin kino heç vaxt bitmir. O, lentlərdə, eksponatlarda, xatirələrdə və ən əsası, bu irsi böyük məsuliyyət və sevgi ilə qoruyan insanların əməyində yaşamağa davam edir.

✍ Səmayə RƏSULOVA

# Naxçıvan karateçilərinin qazandığı uğurun arxasında zəhmət və əzm dayanır




Gəncə İdman Sarayında keçirilən "Olimpiya Ümidləri" beynəlxalq karate turniri Naxçıvan karateçiləri üçün uğurlarla yadda qalıb. Yarışda qazanılan 18 medal idmançıların ardıcıl və əzmkar hazırlığının, eyni zamanda məşqçi heyətinin peşəkar əməyinin bəhrəsidir. Turnirdən böyük uğurlarla geri dönən idmançı və məşqçilərimiz yarış təəssüratlarını bizimlə bölüşüblər.

14 yaşadək qızlar arasında 42 kiloqram çəki dərəcəsində əsas liqanın qalibi olan Xədicə Bayramova bildirib ki, bu qələbə onun üçün xüsusi əhəmiyyət daşıyır. Onun sözlərinə görə, turnirdə rəqiblər kifayət qədər güclü olsalar da, hər görüşə inamla çıxıb. Xədicə qeyd edib ki, qızıl medal uzunmüddətli və gərgin məşqlərin nəticəsidir. Əldə olunan uğur ona gələcək yarışlar üçün böyük motivasiya verib.

İkinci liqada qızıl medal qazanan Aylin Əlizadə isə yarışın yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb. O bildirib ki, müxtəlif ölkələrdən gələn idmançılarla qarşılaşmaq ona böyük təcrübə qazandırıb. Aylin əldə etdiyi nəticənin məsuliyyətini daha da artırdığını, gələcəkdə daha böyük uğurlar qazanmaq üçün məşqlərini davam etdirəcəyini deyib.

Qızıl medalçılardan Alisa Pelent də yarışın gərgin mübarizə şəraitində keçdiyini bildirib. Onun sözlərinə görə, hər görüşə ciddi hazırlaşması və məşqçilərinin tapşırıqlarına dəqiq əməl etməsi qələbə qazanmasında mühüm rol oynayıb. Alisa beynəlxalq turnirdə ölkəmizi layiqincə təmsil etməyin qürurverici olduğunu vurğulayıb.

Qızıl medal qazanan Adil Əliyev bildirib ki, yarış zamanı həyəcan keçirsə də, özünəinamını itirməyib. Rəqiblərinin güclü olması mübarizəni onun üçün daha da maraqlı edib. Adil vurğulayıb ki, qazandığı medalın arxasında ailəsinin və məşqçilərinin daim göstərdiyi dəstək dayanır. Qızıl medalın sahibi Nicat Əsgərli isə qazandığı uğurun təsadüfi olmadığını deyib. O bildirib ki, gündəlik məşqlər, nizam-intizam və məqsədyönlü hazırlıq bu nəticəni əldə etməsinə imkan verib. Nicatın əsas hədəfi beynəlxalq yarışlarda ölkəmizin bayrağını ən yüksək zirvələrdə dalğalandırmaqdır.

Əsas liqada bürünc medal qazanan Sona Nəcəfbəyli əldə etdiyi nəticə ilə kifayətlənmədiyini bildirib. Onun sözlərinə görə, bu turnir çatışmayan cəhətləri görməsinə imkan yaradıb. Növbəti yarışlarda uğurlu çıxış etmək üçün üzərində daha ciddi çalışacaq. Liqanın digər bürünc mükafatçısı Altay Əliyev isə yarışın onun üçün böyük təcrübə olduğunu deyib. O bildirib ki, beynəlxalq səviyyəli rəqiblərlə qarşılaşmaq idmançı kimi inkişafına müsbət təsir göstərib. Altay gələcək yarışlarda daha yüksək medallar qazanmaq əzmində olduğunu da vurğulayıb.

Təbii ki, əldə olunan uğurların əsasında məşqçilərin zəhməti dayanır. Məşqçi Niyaməddin Əliyev əldə olunan uğurları Naxçıvan Muxtar Respublikası "Qapıcıq" karate-do idman klubunun inkişafının göstəricisi kimi dəyərləndirib. O bildirib ki, idmançılar yarışa məsuliyyətlə hazırlaşıb, əksəriyyəti öz potensialını tam nümayiş etdirə bilib. Məşqçinin fikrincə, beynəlxalq turnirlər gənc karateçilərin təcrübəsinin artırılması və gələcək uğurlarının möhkəm təməl üzərində qurulması baxımından xüsusi əhəmiyyət daşıyır.

Məşqçi Nicat Allahverdiyev isə vurğulayıb ki, qazanılan 18 medal kollektivin əməyinin bəhrəsidir. Onun sözlərinə görə, idmançıların əzmkarlığı və məqsədyönlü hazırlığı bu uğuru mümkün edib. Məşqçi bildirib ki, qarşıdakı yarışlarda daha yüksək nəticələr əldə etmək üçün hazırlıq prosesini davam etdirəcək. Əsas məqsəd isə beynəlxalq arenada Naxçıvan karateçilərinin uğurlarını daha da artırmaqdır.

Gəncədə keçirilən beynəlxalq turnirdə əldə olunan bu nəticələr bir daha göstərdi ki, "Qapıcıq" karate-do idman klubu ölkənin idman uğurlarına mühüm töhfə verməkdə davam edir. İdmançıların qazandığı medallar onların zəhmətinin, məşqçilərin peşəkarlığının və məqsədyönlü hazırlığın uğurlu nəticəsi kimi qiymətləndirilir.

✍ Elnurə CƏFƏROVA

# Naxçıvan Dövlət Universitetində paleobotanika sahəsində ilk elmi tədqiqatlara başlanılıb

Naxçıvanın milyon illərlə ölçülən geoloji keçmişi bu gün də alimlər üçün yeni tədqiqat istiqamətləri açır. Ərazinin qədim bitki aləminin izlərini, paleocoğrafi və paleoiqlim xüsusiyyətlərini araşdırmaq məqsədilə Naxçıvan Dövlət Universitetində paleobotanika sahəsində ilk elmi tədqiqatlara başlanılıb. Görülən işlər, əldə olunan ilkin nəticələr və qarşıdakı hədəflərlə bağlı universitetin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin Coğrafiya kafedrasının baş müəllimi Əli Qurbanov məlumat verib.

Əli Qurbanov bildirib ki, Naxçıvanın zəngin geoloji keçmişi nəzərə alınaraq universitetdə paleobotanik tədqiqatların aparılması qərara alınıb. Bu məqsədlə Biologiya kafedrasının əməkdaşları Bəhruz Bayramov, Mürsəl Seyidov, Hilal Qasımov, Pərviz Fətullayev və Coğrafiya kafedrasının əməkdaşı Əli Qurbanovdan ibarət beş nəfərlik elmi-tədqiqat qrupu yaradılıb.

Onun sözlərinə görə, tədqiqatın əsas məqsədi Naxçıvan ərazisində paleobotanika, paleocoğrafiya və paleoiqlim istiqamətlərində kompleks elmi araşdırmalar aparmaqdır.

Universitet rəhbərliyinin dəstəyi ilə əvvəlcədən müəyyənləşdirilmiş təcrübə poliqonlarında tədqiqatlara start verilib. İlk araşdırmalar şəhər yollarının çəkilişində istifadə olunan mergel mənşəli süxurların toplandığı Culfa-Ordubad ərazisində aparılıb. Burada, təxminən, 150-320 milyon il əvvələ aid bitki fosillərinin öyrənilməsi məqsədilə nümunələr toplanıb.

Əli Qurbanov bildirib ki, tədqiqatlar zamanı toplanan qiymətli materialların paleobotanika baxımından öyrənilməsinə başlanılıb. Aparılan araşdırmalar nəticəsində müəyyən edilib ki, aşkar olunan fosillər, təxminən, 250 milyon il əvvəl qədim Tetis dənizinin və ondan əvvəl mövcud olmuş Reyk okeanının sahil boyu, laqunlarında yayılmış bitkilərə məxsusdur. Bu bitkilər oksigensiz mühitdə, yüksək təzyiq və temperaturun təsiri altında daşlaşaraq fosilləşib. Hazırda toplanmış materiallar Naxçıvan Dövlət Universitetində yaradılmış muzeydə mühafizə olunur.



Müsahibin sözlərinə görə, əldə olunan ilkin nəticələr əsasında ikinci tədqiqat sahəsi Şərur rayonunun Havuş kəndi yaxınlığındakı dəniz səviyyəsindən 1957 metr yüksəklikdə yerləşən karbonatlı süxurlar üzərində müəyyənləşdirilib. Burada aparılan araşdırmalar zamanı paleozoy və mezozoy dövrlərinə aid ibtidai bitki fosilləri aşkar edilib.

Ərazinin daha geniş öyrənilməsinə ehtiyac yarandığından üçüncü tədqiqat mərhələsi Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevin də iştirakı ilə yenidən Havuş kəndində həyata keçirilib. Bu dəfə əvvəlki araşdırmalardan fərqli olaraq daha zəngin bitki fosilləri toplanıb, həm ibtidai, həm də ali bitkilərə aid nümunələr müəyyənləşdirilib.

Əli Qurbanov vurğulayıb ki, hazırda toplanmış fosillər üzərində elmi tədqiqatlar davam etdirilir. Paleobotanika ilə yanaşı, ərazinin qədim bitki mühitinin daha dolğun öyrənilməsi məqsədilə paleoiqlim və paleocoğrafiya istiqamətlərində də araşdırmalar aparılır.

Əli Qurbanov bildirib ki, Azərbaycanda paleobotanika sahəsində ilk elmi tədqiqatlar məhz Naxçıvan Dövlət Universitetində aparılır. Hazırda araşdırmalar davam etdirilir, növbəti mərhələdə isə Dərəşam, Xaraba Gilan, Badamlı, Şərur rayonunun Yaycı kəndi və digər perspektivli ərazilərdə paleobotanik ekspedisiyaların keçirilməsi nəzərdə tutulur.

Onun sözlərinə görə, toplanmış materialların təhlilindən sonra Naxçıvanın paleobotanika irsini əks etdirən elmi məqalələr hazırlanaraq beynəlxalq jurnallara göndəriləcək. Bununla yanaşı, aşkar olunmuş fosillər və aparılan elmi tədqiqatların materiallarının nəticələrini əhatə edən albomun hazırlanması da planlaşdırılır. Bu nəşrin Naxçıvanın qədim bitki örtüyünün formalaşması tarixinin öyrənilməsi baxımından mühüm elmi mənbəyə çevriləcəyi gözlənilir. Hazırda bu istiqamətdə elmi tədqiqatlar davam etdirilir.

✍ Zəhra VƏLİYEVA



## İtmişdir

Ordubad rayonu, Yuxarı Əylis kənd sakini İbrahimov Mehman İsmayıl oğlunun adına olan JN-1083^A nömrəli, 10704018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qarabağlar kəndində yaşamış Mənsimov Qulu Hüseyn oğlunun adına olan JN-321^A nömrəli, 10209018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Həbibov Nüsrəddin Həbib oğluna məxsus olan JN-1976^A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Məmmədov Malik Sadıq oğlunun adına olan Ordubad şəhəri, Səməd Vurğun küçəsində yerləşən fərdi yaşayış evinə aid 33 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək şəhərində Rzayev Qəşəm Yaqub oğlunun adına verilmiş JN-169^A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhərində yaşamış Ağayev Məmməd İmanqulu oğlunun adına N.Hikmət küçəsi 11 ünvanında yerləşən evin 1557 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Abbas Zamanov küçəsi 46 ünvanında Rəhimov Mahir Salman oğluna məxsus 01.08.2022-ci il tarixli A-030328 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Vayxır kənd sakini Məmmədov Musa Yunis oğlunun adına olan JN-109^A nömrəli, 10313018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayon sakini Bayramlı Hüseyn Ədalət oğlunun adına verilmiş AD-0054345 nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Aşağı Buzqov kənd sakini Eylazlı Məhəmməd Cəbi oğlunun adına olan JN-279 nömrəli, 10303018 kodlu torpağın mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Ukrayna Milli Mülki Müdafiə Universiteti tərəfindən 2013-cü ildə Cəfərov Toğrul Hidayət oğluna verilmiş Dİ-036178 nömrəli bakalavr diplomuna əlavə itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Yuxarı Uzunoba kəndində yaşamış Rzayev Müzəffər İbrahim oğlunun adına olan JN-94^A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kənd sakini Nəzərov Əbülfəz Musa oğlunun adına verilmiş JN-1017^A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Qahab kəndində yaşayan Qənbərov Məhərrəm Salman oğlunun adına olan A-031021 inventar nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraxanbəyli kənd sakini İbrahimov İbrahim Ənvər oğlunun adına olan JN-1562^A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Gömür kənd sakini Yolçuyev Atəş Vəli oğlunun adına olan AD-0016472 seriya nömrəli hərbçinin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qışlaqabbas kənd sakini Bağırov Zülal Süleyman oğluna məxsus 102011000370-06301 reyestr nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xanlıqlar kəndində yaşamış Cavadov Cahangir Əli oğlunun adına verilmiş JN-501^A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbə sakini Cəfərov Məmmədəli Zeynalabdin oğlunun adına olan A-022155 inventar nömrəli 13.12.2019-cu il tarixli, 103013009196 reyestr nömrəli torpağın planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Kələki kənd sakini Məmmədov Əhrulla Balaca oğlunun adına olan JN-34^A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Düdəngə kənd sakini Babayeva Könül Vaqif qızının adına olan JN-1045^A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Danyeri kəndində yaşamış Mustafayev Allahverən Gülmalı oğlunun adına olan JN-605^B nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Biləv kənd sakini Hüseynov Şahlar Məhərrəm oğlunun adına olan JN-173^A nömrəli, 10705018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Biləv kənd sakini Hüseynov Şahlar Məhərrəm oğlunun adına olan JN-0094 nömrəli, 10705018 kodlu dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Danyeri kənd sakini Paşayev Oruc Yunis oğlunun adına olan JN-311^A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qarabağlar kəndində yaşamış Muradov Əli Qurbanəli oğlunun adına olan JN-100^A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Cəfərova Həlməxatın Əli qızının adına olan JN-1082^A, JN-1082^B və JN-1082^C nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor:
RƏMZİ TAHİRLİ

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 159

Nömrəyə məsul: Elnurə Cəfərova, Günay Hacıyeva
Dizayner: Həbibə Allahverdiyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.